18 iyun 2021 №44-45 (1822) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Qardaşlığın əsəri olan azad Qarabağdan dünyaya mesaj

### "Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları bizim birliyimizi göstərir"

### "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü bizim gücümüzdür"

"Əziz qardaşım Azərbaycanda dəfələrlə olub, ancaq biz ilk dəfə Qarabağ torpağında – Şuşada bir yerdəyik. Bu səfərin tarixi əhəmiyyəti var. Çünki bu gün imzalanmış Birgə Bəyannamə – Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır.



Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri iyunun 15-də Şuşa şəhərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla iki ölkə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanmasından sonra deyib.

Dövlət başçısı vurğulayıb ki, Azərbaycanla Türkiyə arasında münasibətlər dünya miqyasında nadir əməkdaşlıq, işbirliyi, müttəfiqlik nümunəsidir və imzalanmış Bəyannamə tarixə əsaslanır: "Bəyannamədə xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir". XX əsrin sonlarında Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu tarixi sözlər, kəlamlar bizim fəaliyyətimiz üçün əsas amildir. Biz bu vəsiyyətə sadiqik və XXI əsrdə azad edilmiş Şuşada Müttəfiqlik Bəyannaməsini imzalayarkən əcdadlarımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk".

Prezident Şuşa Bəyannaməsində 100 il əvvəl imzalanmış tarixi Qars müqaviləsinə istinad edilməsinə də diqqətə çatdırıb.

Xatırladaq ki, 1921-ci ilin 13 oktyabrında Türkiyə və üç Cənubi Qafqaz respublikası (Azərbaycan, Gürcüstan, Ermənistan) arasında imzalanan Qars müqaviləsi bu ölkələrin qarşılıqlı münasibətlərini və sərhədlərini müəyyən edən tarixi bir sənəd olmaqla yanaşı, həmçinin Azərbaycanın Naxçıvan bölgəsinin taleyi baxımından müstəsna önəm kəsb edir. Müqavilədə (5-ci maddə) Naxçıvan bölgəsinin Azərbaycanın ayrılmaz tərkib hissəsi (müvafiq sərhədləri dəqiq qeyd edilməklə) olduğu təsbit edilib. Bununla da həmin dövrdə ermənilərin Naxçıvanla bağlı Azərbaycana qarşı ərazi iddialarının qarşısında tarixi bir sipər çəkilib və Türkiyə də öz imzası ilə bunun qarantı olduğunu təsdiqləyib. Azərbaycanın otuz ilə yaxın davam edən işğala son qoyaraq ərazi bütövlüyünü, əzəli torpağı olan Qarabağda suverenliyini bərpa etməsindən sonra imzalanan Şuşa Bəyannaməsinin də bu baxımdan tarixi anlamı aşkardır.

2021-ci il 15 iyun tarixli Şuşa Bəyannaməsi də, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətlərinin ən geniş dairəsini ehtiva etməklə, iki ölkənin ərazi bütövlüyünə, suverenliyinə olacaq hər hansı qəsd və ya təhdidin qarşısının birlikdə, ortaq güc və qüvvətlə alınacağını bütün dünyaya – yaxın-uzaq hər kəsə aydın bəyan edir.

davamı səh. 2-də

## Şuşa bu gün mədəniyyətlə dirçəlir

Mədəniyyət ilə vandallıq arasındakı fərqi görmək istəyən gəlsin Qarabağda iki dönəm arasındakı fərqə baxsın. Qarabağ coğrafi baxımdan dünyanın ən gözəl bölgələrindən biri olmaqla yanaşı, mədəniyyət baxımından da ən zəngin yerlərindən biri idi. İnşallah, yenə elə olacaq. Türkiyə olaraq, bu prosesdə də qardaş Azərbaycanın yanında yer almağa davam edəcəyik.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu sözləri iyunun 16-da Milli Məclisdə çıxışı zamanı söyləyib.

Rəcəb Tayyib Ərdoğan deyib: "Dünən qardaşım İlham Əliyev və heyətlərimizlə birlikdə Şuşada idik, azad Qarabağ torpaqlarında Azərbaycan bayrağının qürurla dalğalandığını görməyin sevincini bilavasitə yaşadıq. Şuşa Qarabağ xanlığının banisi Pənahəli xan dövründən bəri adətən təbii bir incəsənət akademiyası kimi, musiqinin, ədəbiyyatın, incəsənətin ən yüksək səviyyədə yaşadılıb və yaşadıldığı şəhər olmuşdur".

Türkiyə Prezidenti qeyd edib ki, qartal yuvası kimi qayaların üstündə səmaya yaxın qurulması ilə əlaqədar Şuşada mədəniyyətin, incəsənətin, ədəbiyyatın ilhamı daim bol olub. "Bu şəhər dahi bəstəkar Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşudbanu Natəvanın, Rəşid Behbudovun və daha neçə-neçə incəsənət xadimlərinin, şairlərin yurdudur. Əhməd bəy Ağaoğlu kimi təkcə Azərbaycanda deyil, Türkiyə və Türk dünyasında da fikirləri ilə söz sahibi olmuş mütəfəkkirlərin yurdu Şuşa bu gün bir daha mədəniyyətlə dirçəlir", - deyə o vurğulayıb.

## Şuşa Bəyannaməsində mədəni irs, ortaq dəyərlər və media əməkdaşlığı

2021-ci il iyunun 15-də imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" iki qardaş ölkənin əməkdaşlığının strateji önəmini ən yüksək səviyyədə təsbit edən, eyni zamanda gələcək addımlara zəmin yaradan tarixi sənəddir.

Şuşa Bəyannaməsi 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq, Azərbaycan-Türkiyə münasibətlərini ən yüksək – müttəfiqlik səviyyəsinə qaldırır.

Bəyannamədə digər mühüm məqamlarla bərabər tarixi-mədəni irs, ortaq mənəvi dəyərlər, ümumtürk həmrəyliyinin təbliği, eləcə də media platformasında geniş əməkdaşlıq istiqamətləri əksini tapıb. Sənədə əsasən, tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diaspor fəaliyyətinin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Bəyannamədə Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğu vurğulanaraq bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin də açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səyləri dəstəklənir.

davamı səh. 2-də

## Vətənpərvərlik mövzusunda ədəbiyyat müsabiqəsinin qalibləri mükafatlandırıldı

İyunun 17-də Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyi tərəfindən ötən ilin oktyabrında elan olunan "Vətənpərvərlik mövzusunda ədəbiyyat müsabiqəsi" qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirin aparıcısı, Əməkdar artist Elşən Cəbrayılov müsabiqə haqqında məlumat verdi. Bildirdi ki, müsabiqəyə 321 əsər təqdim edilib. 53 əsər müsabiqə qaydalarına cavab vermədiyi üçün qəbul olunmayıb. Müsabiqədə "Peşəkar yaradıcı şəxslər" kateqoriyası üzrə 50, "Həvəskar yaradıcı şəxslər" kateqoriyası üzrə 193, "10-15 yaş arası uşaqlar" kateqoriyası üzrə 25 əsər iştirak edib. 268 əsərin 67-si esse janrı, 75-i hekayə janrı, 126-sı poeziya (nəzm) üzrə nümunələrdən ibarət olub.



Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov dedi ki, hamımız Azərbaycanın dövlətçilik tarixində ən qürurverici hadisələrindən olan 44 günlük Vətən müharibəsinin şahidləriyik: "Vətən müharibəsi Azərbaycan dövlətinin güclü siyasi iradəsini, Azərbaycan xalqının xarakterini, milli maraqlarımız naminə dünya azərbaycanlılarının həmrəyliyini, Ordumuzun döyüş rəşadətini və Ali Baş Komandanın bu proseslərdə peşəkar liderliyini dünyaya nümayiş etdirdi".

Nazir ölkə başçısı tərəfindən Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsinin əhəmiyyətini vurğuladı: "Bir çox dövlətlərin siyasi, iqtisadi paytaxtları var, amma rəsmi formada mədəniyyət paytaxtı olan ölkələrin sayı azdır. Bu, Azərbaycan Prezidentinin mədəniyyətimizə göstərdiyi xüsusi diqqətin ən bariz nümunəsidir. Bu gün işğaldan azad olunmuş torpaqlarda intensiv formada aparılan bərpa-quruculuq işləri ilə yanaşı, mədəniyyətimizin, xalqımızın milli ruhunun həmin ərazilərə qaytarılması prosesi həyata keçirilir. Mədəniyyət Nazirliyi tərəfindən bu istiqamətdə sistemli tədbirlər görülür. Ölkə başçısının təşəbbüsü və ideyası əsasında Şuşa şəhərində may ayında "Xarıbülbül" festivalı keçirildi. Bu festival Azərbaycanın nə qədər multikultural və tolerant ölkə olduğunu bir daha nümayiş etdirdi".

davamı səh. 2-də




## "Qarabağın mədəni irsi"

Xəbər verildiyi kimi, iyunun 15-də Türkiyə və Azərbaycan rəhbərlərinin Şuşaya səfəri zamanı keçirilən tədbirlər əsnasında qonaqlara Heydər Əliyev Fondunun hazırladığı "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusu da təqdim olunub. Topluya ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılıq sənətini əks etdirən 5 nəşr daxildir.

"Xalq sənətkarlığı" nəşri Qarabağda ağaciştləmə, başmaqçılıq, bədii tikmə, boyaqçılıq, daşişləmə, dəmirçilik, dəriçilik, dulusçuluq, dülgərlik, həsirçilik, xalçaçılıq və digər sənətlərin geniş yayıldığı, özünəməxsus inkişaf yolu keçdiyini əks etdirir.

Qarabağ bölgəsinin çoxəsrlik tarixə malik və Azərbaycan xalqının mədəni sərvətinin mühüm hissəsini təşkil edən musiqi irsi haqqında foto və məlumatlar "Musiqi" adlı nəşrdə cəmlənib.

"Ədəbiyyat" nəşrində Qarabağda xalqımızın yaratdığı mədəni söz sənəti nümunələri, qarabağlı şair və yazıçılar barədə məlumatlar və fotolar təqdim edilir. "Memarlıq" nəşrində Qarabağın memarlıq nümunələri haqqında məlumatlar fotolar və qrafik rəsmlər vasitəsilə diqqətə çatdırılır.

"Xalçaçılıq" nəşri Qarabağ ərazisində xalçaçılığın yaranma tarixi, xalçaların işlənmə texnikası, Qarabağ xalça qrupunun xarakterik xüsusiyyətləri haqqında söhbət açır.

## "Nizami Gəncəvi və Azərbaycan Atabəyləri dövləti"

### Sərgidə XII-XIII əsrlərə aid 250 eksponat nümayiş olunur

İyunun 17-də AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində "Nizami Gəncəvi və Azərbaycan Atabəyləri dövləti" adlı sərginin açılışı keçirildi.

Tədbiri muzeyin direktoru, akademik Nailə Vəlixanlı açaraq bildirdi ki, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə bu il Prezident İlham Əliyev tərəfindən ölkəmizdə "Nizami Gəncəvi İli" elan edilib: "Bu il həmçinin dövlətçiliyimizin inkişafında böyük rol oynamış Azərbaycan Atabəyləri dövlətinin yaranmasının 885 yaşı tamam olur. Sərginin məqsədi dahi Nizami Gəncəvi və onun yaşadığı dövlətin həyatını tarixi eksponatlar vasitəsilə nümayiş etdirməkdir".



Akademik onu da diqqətə çatdırdı ki, muzeydə qorunub saxlanılan qiymətli eksponatlar və nümayiş etdirilən qədim əlyazmalar, böyük ədiblərin əsərlərinə miniatürlər, xalq yaradıcılığı və tətbiqi sənət nümunələri, görkəmli şəxsiyyətlərlə bağlı nadir sənədlər və müxtəlif dövrlərə aid nümunələr ziyarətçilərdə tarix və mədəniyyətimizin bu günədək keçdiyi inkişaf yolu barədə ətraflı təsəvvür formalaşdırmağa imkan verir.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli xalqımızın tarixi yaddaşında silinməz iz qoyan, tükənməz araşdırma mənbəyi olan Nizami yaradıcılığının gələcək nəsillərə örnək olduğunu dedi. Diqqətə çatdırdı ki, Nizami poeziya məktəbinin Hindistanda Əmir Xosrov Dəhləvi, Tacikistanda Əbdürrəhman Cami, Özbəkistanda Əlişir Nəvai, Azərbaycanda Əssar Təbrizi, Marağalı Əvhədi, Arif Ərdəbili, Məhəmməd Füzuli kimi böyük nümayəndələri yetişib: "Dahi şairin tək "Leyli və Məcnun" poeması 100-dən çox nəzirə yazılıb. Nizaminin təsiri ilə Şərq ədəbiyyatında "Xəmsə" yaratmaq ənənəsi yaranıb, bu həm də şairlər üçün böyük bir sınağa, şərəfli sənət imtahanına çevrilib. Nizami Gəncəvi bu gün də şeirin, sənətin zirvəsi, dəyişməz ölçüsü kimi qalmaqdadır".

davamı səh. 2-də

Çıraqqalada bərpa-konservasiya işləri davam edir



səh. 4

"Azərbaycanım" rəsm festivalında növbəti plener Milli Qurtuluş Gününə həsr olunmuşdu

səh. 4

TÜRKSOY-da Yunus Əmrə irsi ilə bağlı sərgi



səh. 8

# Qardaşlığın əsəri olan azad Qarabağdan dünyaya mesaj

*əvvəli səh. 1-də*

"Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir", – deyə İlham Əliyev bildirib.



Azərbaycan Prezidenti daha sonra deyib: "Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlığımız, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Enerji təhlükəsizliyinin, Cənub Qaz Dəhlizinin önəmi Türkiyə, Azərbaycan və Avropa üçün göstərilir və hər bir məsələ çox böyük önəm daşıyır. Mən onların arasında iki məsələni xüsusilə qeyd etmək istərdim. Birincisi, müdafiə sahəsində əməkdaşlıq, iş birliyi məsələsi. Müdafiə sənayesi sahəsində və qarşılıqlı hərbi yardım məsələləri bu Bəyannamədə öz əksini tapır. Bu, tarixi nailiyyətdir. Biz bir daha göstəririk ki, bundan sonra da hər zaman bir yerdə olacağıq. Bundan sonra da bir-birimizin təhlükəsizliyini təmin edəcəyik, necə ki, bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq".

Prezident qeyd edib ki, Şuşa Bəyannaməsində ikinci önəmli məsələ nəqliyyat məsələsidir: "Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmiryolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır".

Bu yerdə onu da yada salaq ki, 100 il əvvəl imzalanan Qars müqaviləsində də (maddə 17) iştirakçı ölkələr arasında münasibətlərin fasiləsizliyinin təmin edilməsi, müştərək razılaşma ilə dəmiryol, teleqraf və s. rabitə vasitələrinin təmin olunması, "insanların və malların hər hansı ləngidilmə olmadan sərbəst yerdəyişməsi" kimi məsələlər əksini tapmışdı. Lakin sovet rejiminin sonrakı tarixi Türkiyənin Cənubi Qafqazla, ələlxüsus Azərbaycanla münasibətlərinə təkcə tikanlı sərhəd xətti deyil, həm də dəmir ideoloji pərdə endirdi.

"Bu gün biz azad edilmiş Şuşada görüşürük. Bu gün bütün Azərbaycan xalqının, əminəm ki, türk xalqının gözü buradadır, dünyanın gözü buradadır... Bu gün buradan – qədim şəhərimiz olan Şuşadan verilən açıqlamalar bütün dünyaya səs salacaq, bunun böyük əks-sədası olacaqdır", – deyən İlham Əliyev vurğulayıb ki, bu gün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları bizim birliyimizi göstərir: "İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan əziz qardaşım, sayın Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə etmişdir. Müharibənin ilk saatlarından o demişdir ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı, durdurdu. Dedi ki, Türkiyə Azərbaycanın yanındadır və müharibənin ilk saatlarından son dəqiqələrinə qədər əziz qardaşımın və Türkiyə Cümhuriyyətinin, qardaş türk xalqının dəstəyi bizə əlavə güc verirdi...".

"Otuz ilə yaxın davam edən işğala son qoyuldu. Azərbaycan buna qardaş Türkiyənin dəstəyi ilə son qoydu. Otuz il ərzində aparılan danışıqlar heç bir nəticə vermədi. Bu, bir daha onu göstərir ki, iradə, əzmkarlıq, güc və ədalət olan yerdə hər şey əldə etmək mümkündür. Əlbəttə, Türkiyə kimi müttəfiqi olan Azərbaycan İkinci Qarabağ savaşında bundan ruhlanaraq tarixi missiyanı yerinə yetirdi, ədaləti bərpa etdi, ərazi bütövlüyünü bərpa etdi", – deyə İlham Əliyev əlavə edib.

Dövlət başçısı bildirib ki, Qarabağın işğaldan azad edilməsindən sonra Azərbaycanın tarixində yeni dövr başlayır. Qeyd etmək lazımdır ki, əslində, bu həm də Azərbaycan-Türkiyə üçün yeni dövrün başlanmasıdır və Şuşa Bəyannaməsi bunun hüquqi təməlidir.

Bu məqamı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da mətbuata bəyanatında vurğulayıb. "Tarixdə bir çox incəsənət xadimi yetişdirmiş Azərbaycanın mədəniyyət paytaxtı Şuşadan bölgəmizə və dünyaya verəcəyimiz mesajların çox önəmli olduğuna inanıram", deyə o bildirib. Qarabağın dirçəlişi ilə bağlı görülən işlərdən bəhs edən Türkiyə Prezidenti əmin olduğunu vurğulayıb ki, Qarabağ əvvəlki ehtişamına və öz kimliyinə qovuşacaq: "Buna heç şübhəmiz yoxdur. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Xocavənd kimi Qarabağın qədim yaşayış məntəqələrinin yenidən inkişaf etdiyi günləri yaxın vaxtlarda hamımız birlikdə görəcəyik. Türkiyə olaraq, azadlıq mübarizəsində olduğu kimi, bərpa işlərində də qardaşlarımıza hər cür dəstəyi veririk, verməkdə də davam edəcəyik. Ən qısa müddətdə evlərinə qayıtmalarını gözlədiyimiz azərbaycanlı qardaşlarımız üçün də hər cür səy göstərəcəyik".

Rəcəb Tayyib Ərdoğan daha sonra deyib: "Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik. Bəyannamə Şuşada bu gün reallığa çevrilir. Bu, son dərəcə önəmlidir. Türkiyə ilə Azərbaycan arasındakı bu Bəyannamə bir sıra məsələləri əhatə edir. Gələcəklə bağlı addımları atarkən, artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük.

Türkiyə olaraq qədim Şuşa şəhərində ən qısa müddətdə, İnşallah, baş konsulluq açmağı planlaşdırırıq. Beləliklə, bölgədə həyata keçirəcəyimiz fəaliyyətlərin daha sürətli və səmərəli şəkildə icra olunmasını da təmin edəcəyik.

Digər tərəfdən, Azərbaycanın Cənubi Zəngəzur dəhlizi layihəsini çox əhəmiyyətli hesab edir və onu da dəstəkləyirik. Bu layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq dəhliz açılacaqdır. Bu, çox böyük əhəmiyyət kəsb edir".

Türkiyə Prezidenti diqqətə çatdırıb ki, pandemiyanın doğurduğu çətinliklərə baxmayaraq, kənd təsərrüfatından enerjiyə, nəqliyyatdan turizmə, müdafiədən təhsil və mədəniyyətə qədər hər sahədə əməkdaşlığı inkişaf etdirmək üçün birgə səyləri davam etdiririk. Eyni zamanda müdafiə sənayesi sahəsində işbirliyi genişlənəcək: "Müdafiə sənayesi sahəsində əlaqələrimizi texnologiya transferi və birgə istehsal layihələri ilə daha da gücləndiririk. Bir az əvvəl "Baykar" şirkətinin baş direktoru Haluk bəyə qardaşım "Qarabağ" ordeni təqdim etdi. Mən də ailə adından ona xüsusilə təşəkkür edirəm. Təbii ki, pilotsuz uçuş aparatları burada ciddi işlər gördü. Müdafiə sənayesi sahəsindəki əlaqələrimiz bundan sonra daha da fərqli şəkildə inkişaf edəcək. Bu fərqli inkişafla yanaşı, Azərbaycan bir bazar deyil, eyni zamanda, bu prosesdə bir istehsal mərkəzi olmaq imkanı da əldə edəcək. Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür".



## "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə"

İyunun 15-də Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı musiqili kompozisiya təqdim edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan musiqili kompozisiyaya baxıblar.

Musiqili kompozisiyada Azərbaycan Atçılıq Federasiyasının təqdim etdiyi Qarabağ atlarının möhtəşəm çıxışının müşayiəti ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı balet truppasının, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının, Azərbaycan Dövlət Rəqs Ansamblının, "Mirvari" rəqs ansamblının və Bakı Xoreoqrafiya Akademiyası tələbələrinin rəqsləri, "Natiq" ritm qrupunun ifaları təqdim olunub. Proqramda Azərbaycanın və Türkiyənin xalq və bəstəkar mahnıları səslənib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana ən qədim at cinslərindən olan "Zəfər" adlı Qarabağ atı və "Xarıbülbül" kompozisiyası hədiyyə edilib. "Xarıbülbül" kompozisiyasında Qarabağın rəmzi sayılan iki xarıbülbül gülü birləşərək Azərbaycan ilə Türkiyə arasındakı əbədi dostluq və qardaşlıq münasibətlərini təcəssüm etdirir.

Şuşada təşkil olunan tədbirin qonaqlarına, həmçinin Heydər Əliyev Fondunun "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusu hədiyyə olunub. Topluya ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılıq sənətini əks etdirən ayrı-ayrı nəşrlər daxildir. Qonaqlara Şuşa səfəri ilə bağlı xatirə medalları da təqdim edilib.

## Xorvatiya ilə mədəni əlaqələr müzakirə edilib

Mədəniyyət naziri Anar Kərimov iyunun 16-da Xorvatiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Branko Zebiç ilə görüşüb.



Səfiri salamlayan nazir Azərbaycanla Xorvatiya arasında dostluq münasibətlərinin bir çox sahələrdə səmərəli əməkdaşlığa, o cümlədən mədəni əlaqələrə zəmin yaratdığını bildirib. Qeyd olunub ki, iki ölkə arasında imzalanmış sənədlər bu əlaqələrin inkişafına əhəmiyyətli töhfə verir.

Ölkələrimiz arasında mədəni əlaqələrin daha da gücləndirilməsinin vacibliyini vurğulayan Anar Kərimov mədəni irsin bərpasında Xorvatiyanın təcrübəsindən istifadə, kitabxana, muzey işi və mədəniyyətin müxtəlif sahələrində təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib, birgə tədbirlərin təşkilində ölkəmizin maraqlı olduğunu diqqətə çatdırıb.

Qəbula görə nazirə təşəkkürünü bildirən səfir Branko Zebiç ikitərəfli münasibətlərin inkişafından məmnunluğunu ifadə edib. Mədəniyyət sahəsində birgə fəaliyyətin səmərəli təşkili məqsədilə bu kimi görüşlərin əhəmiyyətini qeyd edən diplomat ölkələrimiz arasında mədəni əlaqələrin daha da genişlənəcəyinə ümidvar olduğunu bildirib.

Görüşdə iki ölkə arasında mədəniyyət sahəsində qarşılıqlı fəaliyyətin gələcək perspektivləri müzakirə edilib, maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Şuşa Bəyannaməsində mədəni irs, ortaq dəyərlər və media əməkdaşlığı

*əvvəli səh. 1-də*

Tərəflər 10 dekabr 2020-ci il tarixində imzalanmış media sahəsində strateji əməkdaşlıq haqqında anlaşma memorandumuna uyğun olaraq Azərbaycan-Türkiyə Media Platformasının imkanları nəzərə alınmaqla, iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahələrində əməkdaşlığı daha da gücləndirəcəklər.

Hər iki xalqın müştərək dəyərlərinin ümdə təzahürlərinə lazımi ictimai dəstəyin göstərilməsi, tarixi və mədəni irslərinin qorunması üçün birgə fəaliyyətin həyata keçirilməsi, türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlıq da sənəddə əksini tapıb. Tərəflər türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər.

## Vətənpərvərlik mövzusunda ədəbiyyat müsabiqəsinin qalibləri mükafatlandırıldı

### "İnanıram ki, gələcəkdə bu əsərlər əsasında serial və filmlər də ərsəyə gələcək"

*əvvəli səh. 1-də*

Mədəniyyət paytaxtı olan bu şəhərdə iyunun 15-də Azərbaycan və Türkiyə prezidentlərinin imzaladığı Şuşa Bəyannaməsini yüksək qiymətləndirən Anar Kərimov qeyd etdi ki, bu tarixi sənəd mühüm strateji mahiyyəti ilə yanaşı, işğaldan azad olunmuş ərazilərdə, ümumilikdə regionda mədəni əlaqələrin inkişafına, sabitliyin bərqərar olmasına öz töhfəsini verəcək.



"Vətənpərvərlik mövzusunda ədəbiyyat müsabiqəsi" haqqında söz açan nazir dedi ki, müsabiqə xalqımızda hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsi, Vətənimizin suverenliyi uğrunda Azərbaycan əsgərinin döyüş rəşadətinin və şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, gələcək nəsillər üçün II Qarabağ müharibəsi mövzusunda yeni bədii əsərlərin yaradılması məqsədilə təşkil olunmuşdu. Müsabiqəyə ölkəmizlə yanaşı, Türkiyədən 2, Rusiyadan 2, İrandan 1 nəfər əsər təqdim edib: "Mən qalib olan əsərlərlə tanış oldum və diqqətimi xüsusi bir məqam çəkdi. İndiyə qədər bu mövzuda yazılan ədəbi əsərlərdə Vətən həsrəti, nisgil, kədər tərənnüm olunurdusa, artıq bu əsərlərdə şücaət, məğrurluq, qürur və Zəfər hissi vəsf olunub. Əlbəttə ki, bu amil Vətən müharibəsində qazanılan şanlı Qələbənin yazarlarımızda yaratdığı qalib ruhla bağlıdır. Xatırlayırsınızsa, Azərbaycan Prezidenti Şuşa şəhərinin işğaldan azad olunması xəbərini xalqımıza çatdıran zaman Ordumuzun Vətən müharibəsində, məhz Şuşa şəhərinin azad olunmasında göstərdiyi qəhrəmanlığı xüsusilə qeyd etdi və bildirdi ki, gələcəkdə bu haqda hekayələr, romanlar yazılacaq. İnanıram ki, gələcəkdə bu qalib əsərlər əsasında serial və filmlər də ərsəyə gələcək".

Anar Kərimov nazirliyin ənənəvi "Qızıl kəlmə" ədəbi mükafatının beynəlxalq təcrübəyə uyğun, sistemli proqrama əsaslanan yeni bir ədəbi mükafatla əvəzlənməsi üçün layihələndirmə prosesi aparıldığını da diqqətə çatdırdı. Bildirdi ki, bu işə yazarlardan gələn çoxsaylı müraciətlər nəzərə alınmaqla start verilib: "Mədəniyyət Nazirliyinin "Azərbaycan kitabının dünyada tanıdılması" layihəsi də daha ciddi tərcümə proqramı ilə əvəz olunacaq. Bu proqram yazarlarımızın xarici dilli müsabiqələrə, geniş oxucu kontingenti olan coğrafiyalara çıxışını təmin edəcək. Bir daha müsabiqədə qalib gəlmiş hər bir şəxsi təbrik edir və fəaliyyətlərində uğurlar arzulayıram".

Azərbaycan Yazıçılar Birliyinin katibi, müsabiqə komissiyasının üzvü Rəşad Məcid layihənin əhəmiyyətini yüksək qiymətləndirdi. Komissiyanın üzvü, Nizami adına Ədəbiyyat İnstitutu Uşaq ədəbiyyatı şöbəsinin müdiri Elnarə Akimova Mədəniyyət Nazirliyinə ədəbiyyata və sözə verdiyi dəyərə görə təşəkkür etdi.

Çıxışlardan sonra bədii qiraət ustaları Xəzər Süleyman və Sabirə Abdullayeva qalib əsərlərdən parçalar səsləndirdilər.

Daha sonra qaliblərə mükafatlar təqdim edildi. Müsabiqənin "Peşəkar yaradıcı şəxslər" kateqoriyasında hər bir janr üzrə qaliblərə 1500, "Həvəskar yaradıcı şəxslər" kateqoriyasında hər bir janr üzrə qaliblərə 800 manat məbləğində pul mükafatı və nazirliyin xüsusi diplomu təqdim olundu. "10-15 yaş arası uşaqlar" kateqoriyasında hər bir janr üzrə qaliblərə fəxri fərman və nazirliyin tabeliyində olan muzeylərə birillik ödənişsiz ziyarət kartı hədiyyə edildi.

Hər üç kateqoriyada esse, hekayə və poeziya üzrə ümumilikdə 33 nəfər mükafatlandırıldı.

**Lalə AZƏRİ**

## "Nizami Gəncəvi və Azərbaycan Atabəyləri dövləti"

*əvvəli səh. 1-də*

Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru Bəxtiyar Əsgərov, AMEA-nın Gəncə Bölməsinin Gənc alimlər şurasının sədri Elnur Həsənov çıxışlarında Nizami Gəncəvi irsi və onun yaşadığı dövləti tarixi eksponatlar vasitəsilə nümayiş etdirmək baxımından sərginin əhəmiyyətli olduğunu bildirdilər.

Çıxışlardan sonra tədbir iştirakçıları sərgi ilə tanış oldular. Sərginin kuratoru, muzeyin Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri Səbuhi Əhmədov təqdim olunan nümunələr barədə məlumat verdi. Bildirdi ki, muzeyin müxtəlif fondlarından ümumilikdə 250 eksponat sərgidə nümayiş olunur. Eksponatlar XII-XIII əsrlərin əvvəllərinə aid olub Azərbaycanın əsasən Gəncə, Beyləqan, Bərdə, Mingəçevir, Şabran, Naxçıvan şəhərlərində aşkar edilib. Onların bəzisi ilk dəfə olaraq ziyarətçilərə təqdim olunur. Eksponatlar arasında əski (ərəb qrafikalı) əlifba ilə hazırlanaraq 1909-cu ildə Gəncə şəhərində Mirzə Məhəmməd Axundov tərəfindən nəşr olunmuş "Şeyx Nizami. Tərcümeyi-halı" kitabçası qonaqların xüsusi marağına səbəb oldu.



# Yaradıcı əməyə verilən qiymət

## "Bu mükafatlar eyni zamanda bir məsuliyyətdir"

İyunun 15-də Milli Xalça Muzeyində Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə orden, medal və fəxri adlara layiq görülmüş mədəniyyət və incəsənət xadimlərinə mükafatların təqdimat mərasimi keçirildi.

Tədbirdə çıxış edən mədəniyyət naziri Anar Kərimov bu görüşdən məmnunluğunu bildirdi: "Hər birinizin Azərbaycan mədəniyyətinə böyük töhfələri var. Dövlət başçımız mədəniyyət və incəsənət sahəsində çalışan insanlara hər zaman qayğı göstərir, onları diqqətdə saxlayır. Bugünkü təltifetmə mərasimi də bunun bariz nümunəsidir. Dövlət başçısının rəhbərliyi ilə, pandemiya şəraitinə baxmayaraq, mədəniyyətimizin inkişafı ilə bağlı proseslər davamlı xarakter daşıyır. Buna misal olaraq Şuşanın mədəniyyət paytaxtı elan edilməsi, "Xarıbülbül" festivalının keçirilməsi, habelə yay aylarında nəzərdə tutulan Vaqif poeziya günlərini və digər mədəni layihələri qeyd edə bilərik".

Nazir daha sonra dedi: "Hörmətli sənət xadimləri, bildiyiniz kimi, Mədəniyyət Nazirliyində də geniş islahatlara başlanılıb. Məqsədimiz cəmiyyətdə mədəniyyətin rolunu artırmaqdır. Bu müqəddəs missiyada siz də böyük bir qüvvəyə maliksiniz. Sizi bu prosesin tərkib hissəsi kimi görürük. Çox istərdik ki, bu yolda siz də bizə yardımçı olasınız və əminəm ki, belə də olacaq. Bilirəm ki, bu mükafatlandırma nəinki imtiyazlardır, eyni zamanda sizin üzərinizdə bir vəzifə və məsuliyyətdir. Siz cəmiyyətdə olan nüfuzunuzdan istifadə edib mədəniyyətimizin bundan sonra da inkişafına dəstək olacaqsınız. Mədəniyyət əcdadlarımızdan qalan mirasdır və hesab edirik ki, bu zəngin mədəniyyəti qorumaqla yanaşı, yeni yaradıcılıq imkanlarına meydan açacağıq".



Anar Kərimov çıxışının sonunda mədəniyyət xadimlərinə Milli Qurtuluş Günü münasibətilə də təbriklərini çatdırdı: "Ulu öndər Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan bu günün sayəsində dövlətimiz hazırkı uğurlara nail ola bilib. Həm sosial-iqtisadi, həm də mədəni dirçəlişimizin bünövrəsində ulu öndərin qoyduğu siyasət dayanır. 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər də məhz bu siyasətin nəticəsidir. Bir daha sizi təbrik edirəm".

Sonra ölkə başçısının müvafiq sərəncamları ilə "İstiqlal", "Şöhrət", "Şərəf", 1-ci və 2-ci dərəcəli "Əmək" ordenləri və digər təltiflərə layiq görülmüş mədəniyyət və incəsənət xadimlərinin (ümumilikdə 14 nəfər) mükafatları təqdim olundu.

"Şərəf" ordeninə layiq görülmüş Xalq artisti, xanəndə Mənsum İbrahimov Vətən müharibəsində xalqımıza Qələbə sevinci yaşatdığına görə ölkə başçısına təşəkkürünü bildirdi.

Rejissor, Xalq artisti Cənnət Səlimova təltif olunduğu "Şərəf" ordeninə və teatra olan sevgisinə görə dövlət başçısına minnətdarlığını ifadə edərək "Yaşasın teatr!" dedi.

"Şərəf" ordenli Xalq artisti, bəstəkar Tofiq Bakıxanov 90 illiyi münasibətilə ona göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür etdi.

Xalq artisti, müğənni Niyaməddin Musayev bütün yaradıcılığı boyu ulu öndər Heydər Əliyevin diqqət və qayğısını gördüyünü qeyd etdi. 60 illiyində "Şöhrət" ordeninə, 80 illiyində 2-ci dərəcəli "Əmək" ordeninə layiq görülməsinin onun üçün böyük fəxr olduğunu bildirdi: "Ulu öndər məni musiqi sahəsində novatorluğuma görə mükafatlandırmışdısa, bu gün onun davamçısı Prezident İlham Əliyev estrada musiqisinin inkişafındakı xidmətlərimə görə məni belə bir yüksək mükafata layiq görüb".

"Şöhrət" ordeninə layiq görülən tanınmış şair, Əməkdar incəsənət xadimi Baba Vəziroğlu dövlət başçısına təşəkkürünü ulu öndərə həsr etdiyi şeirlə dilə gətirdi.

Mükafatlandırmanın sonunda nazir Anar Kərimov bir daha mədəniyyət və incəsənət xadimlərini təbrik edərək cansağlığı və fəaliyyətlərində uğurlar arzuladı.

**LALƏ**

# Şəhid ailələrinə və qazilərə diqqət və qayğı göstərilir

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük müharibədə qazandığımız Zəfər xalqımızın minlərlə qəhrəman övladının canı-qanı bahasına, əsgər və zabitlərimizin, cəbhəyə könüllü yollanmış vətənpərvər gənclərimizin igidliyi və rəşadəti sayəsində tariximizə yazılmış şanlı salnamədir. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda edən qəhrəmanlarımızın ailələrinə diqqət və qayğı ilə yanaşmaq bütün cəmiyyətimizin borcudur.

Bu gün Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin sosial qayğılarının həll edilməsi üçün zəruri tədbirlər görülür.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən də bu istiqamətdə müvafiq addımlar atılır, o cümlədən şəhidlərin ailə üzvlərinin, döyüşlərdə yaralanan və müharibə iştirakçısı olan insanların və onların ailə üzvlərinin imkan daxilində mədəniyyət müəssisələrində işlə təmin olunması məsələlərinə baxılır.

2021-ci ilin 29 yanvar tarixindən 31 may tarixinə kimi Mədəniyyət Nazirliyi tərəfindən 75 şəhid və yaralanmış şəxsin ailə üzvü, I və II Qarabağ müharibələri iştirakçıları və onların ailə üzvləri mədəniyyət müəssisələrində işlə təmin edilib. Onlardan 38 nəfər şəhidlərin ailə üzvü, 9 nəfər döyüşlərdə yaralan şəxs, 13 nəfər döyüşlərdə yaralananların ailə üzvü, 10 nəfər müharibə iştirakçısı, 5 nəfər isə müharibə iştirakçısının ailə üzvüdür.

Onu da qeyd etmək istəyirik ki, işlə təmin olunanlar bundan əvvəl mədəniyyət sahəsində çalışmamış şəxslərdir. Eyni zamanda şəhid mədəniyyət işçilərinin ailələrinə və döyüşlərdə yaralanmış mədəniyyət işçilərinə Mədəniyyət Nazirliyinin dəstəyi ilə maddi yardım göstərilib.

Nazirlik tərəfindən şəhid ailələri, döyüşlərdə yaralananlar və müharibə iştirakçıları daim diqqətdə saxlanılır, mütəmadi olaraq onlarla görüşlər keçirilir, mövcud problemlərinin həllində köməklik göstərilməsi məqsədilə tədbirlər görülür.



# Ali Hərbi Məktəbdə bayram konserti

İyunun 14-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsi 15 İyun – Milli Qurtuluş Günü münasibətilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Xalq artisti Aygün Kazımovanın iştirakı ilə bayram konserti təşkil edib.

Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlanan proqramda ulu öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konsertin aparıcıları Humay Muxtarova və Ayaz Məmmədov Ali Hərbi Məktəbin şəxsi heyətini salamlayaraq, Milli Qurtuluş Günü münasibətilə onları təbrik ediblər.

Sonra nümayiş olunan videoçarxda ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan bu günün müasir Azərbaycan tarixində yeri və əhəmiyyəti, müstəqil dövlətimizin bərqərar olmasında ulu öndərin rolu vurğulanıb. Prezident İlham Əliyevin iqtisadiyyatımızın inkişafı və müasir tələblərə cavab verən ordu quruculuğu, Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində gördüyü işlər də videoçarxda qeyd edilib.

Daha sonra hərbi xidmətdə fərqlənən hərbçilərin mükafatlandırma mərasimi keçirilib.

Tədbir Xalq artisti, populyar müğənni Aygün Kazımovanın ifasında hərbi-vətənpərvərlik mövzulu mahnılar ilə davam edib. Böyük ruh yüksəkliyi ilə keçən konsert "Səma" rəqs ansamblının müşayiəti ilə müğənninin ifasında "Azərbaycan" mahnısının sədaları altında yekunlaşıb.

Tədbirin sonunda Aygün Kazımovaya Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "Vətənə xidmətə görə" medalı və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin mükafatı təqdim olunub.

# Böyük qayıdışdan milli qurtuluşa

Milli Qurtuluş Günü münasibətilə bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində müxtəlif tədbirlər, təqdimatlar keçirilib.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin Kürdəmir rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda mühazirə keçirilib. Mərkəzdə təşkil olunan digər tədbirdə regional idarənin rəisi Faiq Xudanlı, 2016-cı ilin Aprel döyüşlərinin şəhidi Əbubəkr İsmayılovun anası Rəna İsmayılova, 2020-ci il Vətən müharibəsinin şəhid giziri Cəmil Həşimlinin anası Simuzər Bağıyeva çıxış edərək xalqımızı Milli Qurtuluş Günü münasibətilə təbrik ediblər. Beyləqan rayon Mədəniyyət Mərkəzində də tədbir keçirilib. Regional idarənin rəisi Faiq Xudanlı və Beyləqan RİH başçısının müavini Yeganə Məmmədova ulu öndərin abidəsi önünə tər güllər düzüblər. Tədbir iştirakçıları rəsm və əl işlərindən ibarət sərgiyə, ümummilli liderin həyat və fəaliyyətini əks etdirən kitab sərgisinə baxıblar. Bundan əlavə, İmişli rayon Mədəniyyət Mərkəzində "Sən elə bir zirvəsən...", Xocavənd rayon Mədəniyyət evində "Heydər Əliyev ideyaları əbədidir" adlı tədbirlər təşkil edilib. Füzuli rayon Mərkəzi kitabxanasında isə kitab sərgisi açılıb.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Mərkəzi kitabxanasında "Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsidir" adlı tədbir keçirilib. Salyan rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Azadlığa gedən yol qurtuluşdan başlayır" adlı onlayn tədbir keçirilib. Cəbrayıl və Salyan rayon MKS-ləri isə əlamətdar günlə bağlı videoçarxlar hazırlayıblar.



İsmayıllı Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə "Milli mədəniyyətimizin inkişafında Heydər Əliyevin rolu" mövzusunda onlayn konfrans və "Xəmsə" intellektual oyunu keçirilib. Regional idarənin rəisi Elçin Nəcəfov, idarənin əməkdaşları, Qəbələ, Şamaxı və İsmayıllı rayon Heydər Əliyev mərkəzlərinin direktorları konfransda iştirak ediblər. Həmçinin İsmayıllı şəhərindəki Heydər Əliyev adına parkda Milli Qurtuluş Günü münasibətilə sərgi nümayiş olunub, musiqi nömrələri səsləndirilib.

Ağstafa Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Ağstafa, Tovuz, Qazax rayonlarında açıq havada sərgilər keçirilib. Sərgilərdə ulu öndərin zəngin həyat və fəaliyyətini əks etdirən kitablar, uşaqların rəsmləri, eləcə də muzey eksponatları nümayiş etdirilib. Ağstafa rayon Heydər Əliyev Mərkəzi, Mədəniyyət Mərkəzi, Tarix-Diyarşünaslıq və Hüseyn Arif ev-muzeyləri, MKS və filialları, Tovuz rayon Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyi, Tarix-Diyarşünaslıq Muzeyi, MKS, Qovlar şəhər və Düz Qıraqlı kənd musiqi məktəbləri, Qazax rayon Mədəniyyət Mərkəzinin filialları, Tarix-Diyarşünaslıq Muzeyi, rayon MKS və 1 nömrəli Uşaq musiqi məktəbi Milli Qurtuluş Gününə həsr edilmiş müxtəlif tədbirlər təşkil ediblər.



Lənkəran Regional Mədəniyyət İdarəsinin rəhbərliyi ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində yerləşən abidəsini ziyarət edib. Daha sonra tədbir iştirakçıları Lənkəran şəhər Heydər Əliyev Mərkəzində dahi şəxsiyyətin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar. Regional idarənin təşkilatçılığı ilə Lənkəran Dairəvi qalasında iməcilik təşkil edilib. H.Rzayeva adına Lənkəran şəhər 2 nömrəli Uşaq musiqi məktəbində əlamətdar günlə bağlı tədbir keçirilib.

Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Şuşa rayon Malıbəyli kənd Uşaq musiqi məktəbində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova ilə görüş keçirilib. Komitə sədri Milli Qurtuluş Gününün müstəqillik tariximizdəki yerindən söhbət açıb.

Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Hüseynov, idarənin əməkdaşları və tabe müəssisələrin rəhbərləri Xaçmaz şəhərindəki Heydər Əliyev adına istirahət parkında ümummilli liderin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər. Regional idarənin təşkilatçılığı ilə açıq havada rəsm sərgisi təşkil olunub. Quba rayon MKS-nin Oxuculara xidmət şöbəsi, Alpan, Aşağı Xuc və Əski İqriq kənd kitabxanaları tərəfindən tədbir keçirilib. Siyəzən rayon Heydər Əliyev Mərkəzində məktəblilərin əl işlərindən ibarət sərgi açılıb.




Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Milli Qurtuluş Gününə həsr olunmuş qısa film nümayiş olunub. Balakən rayon Heydər Əliyev Mərkəzi, Mədəniyyət Mərkəzi, rayon MKS, Zaqatala rayon Mədəniyyət Mərkəzi, Heydər Əliyev Mərkəzi, Üçüncü Tala kənd Mədəniyyət evi, Dağlı kənd kitabxanası və Oğuz rayon MKS-nin Baş Daşağıl kənd kitabxana filialında da əlamətdar günlə bağlı tədbirlər keçirilib.

Ağdaş Regional Mədəniyyət İdarəsi Zərdab rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə onlayn elmi-praktik konfrans keçirilib. Zərdab rayon Heydər Əliyev Mərkəzinin direktoru Könül Rəhimova çıxışında ümummilli liderin qətiyyəti və müdrikliyi sayəsində müstəqilliyimizin qorunduğunu və Azərbaycanın sürətli inkişaf yoluna qədəm qoyduğunu diqqətə çatdırıb.




Sabirabad Regional Mədəniyyət İdarəsi Sabirabad rayon Mədəniyyət Mərkəzində əlamətdar günlə bağlı onlayn tədbir keçirilib. Mərkəzin nəzdində fəaliyyət göstərən "Kristal" rəqs qrupunun çıxışı ilə başlayan tədbirdə müğənnilər Sərxan Baxşiyev və Şamil Ağayev vətənpərvərlik ruhlu mahnılar oxuyublar. Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Yeni Güdəcühür qəsəbə Klub-icma mərkəzində "Qurtuluş tariximizin unudulmaz səhifəsi" adlı tədbir keçirilib. Tədbir çərçivəsində videoçarx nümayiş etdirilib və sərgiyə baxış olub.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbində keçirilən bayram tədbirində məktəbin nəfəsli alətlər və sazçalanlar ansamblları çıxış ediblər. Gəncə şəhər Mədəniyyət Mərkəzi, Mərkəzi kitabxananın Uşaq şöbəsi, 11, 16, 19 və 24 nömrəli kitabxana filialları, Heydər Əliyev Mərkəzi, Goranboy Rayon Tarix-Diyarşünaslıq Muzeyi, Heydər Əliyev Mərkəzi, Dövlət Rəsm Qalereyası, MKS-nin Uşaq şöbəsi, Samux rayon Heydər Əliyev Mərkəzi, Mədəniyyət Mərkəzi, Mərkəzi kitabxananın Uşaq şöbəsi, Kəlbəcər rayon Mərkəzi kitabxanası da Milli Qurtuluş Günü ilə bağlı müxtəlif tədbirlər təşkil ediblər.



Bərdə Regional Mədəniyyət İdarəsi tərəfindən Milli Qurtuluş Günü münasibətilə təşkil olunan tədbirdə idarənin rəisi İlyas Hacıyev, əməkdaşları və mədəniyyət işçiləri iştirak edib. Tədbir çərçivəsində Bərdə şəhərindəki Heydər Əliyev adına park-bulvarın ərazisində ulu öndərin abidəsi ziyarət edilib, önünə tər çiçəklər düzülüb, dahi rəhbərin əziz xatirəsi ehtiramla yad olunub.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağcabədi rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Heydər Əliyev və müasir güclü Azərbaycan Ordusu" və "Böyük xilaskarlıq qayıdışı" adlı tədbirlər keçirilib. Gənclərin İnkişaf və Karyera Mərkəzi Ağdam rayonu üzrə könüllülərinin Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil edilib.



Şəmkir Regional Mədəniyyət İdarəsi Şəmkir Rayon Tarix-Diyarşünaslıq Muzeyində gerçəkləşən tədbirdə muzeyin baş fond mühafizi Sübhanə Hacıyeva "Heydər Əliyev Azərbaycan dövlətçiliyinin xilaskarıdır" mövzusunda çıxış edib. Regional idarənin Göygöl rayon üzrə nümayəndəliyinin təşkilatçılığı ilə videokonfrans keçirilib. Daşkəsən rayon Heydər Əliyev Mərkəzi və rayon MKS də əlamətdar günlə bağlı tədbirlər təşkil ediblər.

Masallı Regional Mədəniyyət İdarəsinin rəhbərliyi və mədəniyyət işçiləri ümummilli liderin şəhərin mərkəzindəki abidəsini ziyarət ediblər. Masallı rayon Heydər Əliyev Mərkəzinin inzibati binasının qarşısında "Doğma yurdum Azərbaycan" adlı istedadlı yeniyetmə və gənclərin açıq havada sərgi-pleneri təşkil edilib. R.Tağıyev adına Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyində rayon Uşaq-gənclər inkişaf mərkəzinin müəllim və şagirdləri üçün ekskursiya aparılıb, rayon 4 saylı tam orta məktəbin 5-ci sinif şagirdlərinə tarix dərsi keçirilib. Yardımlı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı, rayonun Köryədi kənd tam orta məktəbi şagirdlərinin iştirakı ilə tədbir keçirilib. Cəlilabad rayon Mədəniyyət Mərkəzinin tabeliyində olan şəhər 2 saylı klubun kollektivi "Qurtuluş yolu" adlı onlayn konsert proqramı təqdim edib. Masallı rayon Mədəniyyət Mərkəzi, şəhər Onbirillik incəsənət məktəbi, Yardımlı rayon Heydər Əliyev Mərkəzi və Cəlilabad Rayon Tarix-Diyarşünaslıq Muzeyi də əlamətdar günlə bağlı tədbirlər keçiriblər.

**NURƏDDİN**

# Gədəbəy Aşıq məktəbində yubiley tədbiri

Saz-söz sənətimizin ən mötəbər isimlərindən olan ustad Aşıq Ələsgərin 200 illik yubileyi münasibətilə iyunun 14-də Gədəbəy Aşıq məktəbində ədəbi-musiqili tədbir təşkil edilib. Tədbirdə məktəbin şagirdləri və müəllimlərinin ifalarında ustadın müxtəlif şeir növlərindəki poetik nümunələri səslənib.

Yubiley tədbirində Şəmkir Regional Mədəniyyət İdarəsinin rəisi Zöhrab Adıgözəlov, Gədəbəy Rayon İcra Hakimiyyəti başçısının birinci müavini



Natiq Nağıyev, rayondakı uşaq musiqi məktəblərinin rəhbərləri və Gədəbəy Aşıq Məktəbi şagirdlərinin valideynləri də iştirak ediblər.

# Mədəniyyət naziri dünya şöhrətli baletmeyster Eldar Əliyevlə görüşüb

Xəbər verdiyimiz kimi, məşhur xoreoqraf soydaşımız, Rusiya Federasiyasının Əməkdar incəsənət xadimi, Sankt-Peterburq Mariinski Teatrı Primorsk səhnəsinin baş baletmeysteri Eldar Əliyev Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı rəhbərliyinin dəvəti ilə Bakıda səfərdədir.



Mədəniyyət naziri Anar Kərimov iyunun 14-də görkəmli sənətkar Eldar Əliyevlə görüşüb.

Görüş zamanı ölkəmizdə xoreoqrafiya sahəsinin inkişaf perspektivləri müzakirə olunub, gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb. Eldar Əliyev gələcəkdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində P.İ.Çaykovskinin "Yatmış gözəl", Q.Qarayevin "İldırımlı yollarla" baletləri və digər əsərlərin səhnələşdirilməsi işini özü üçün şərəf hesab etdiyini bildirib.

Nazir xoreoqraf soydaşımızla əməkdaşlığın Azərbaycan mədəniyyətinin inkişafına töhfə olacağını deyib, sənətkara yaradıcılıq uğurları arzulayıb.

# Qarabağ prioritetdir, amma digər regionlar da diqqətdən kənarda deyil

Bu gün dünyanın gözü Qarabağdadır. Bu baxımdan Qarabağdakı abidələrin bərpası prioritetdir. Ancaq bu o demək deyil ki, regionlardakı digər abidələrimiz diqqətdən kənarda qalacaq.

Mədəniyyət naziri Anar Kərimov bu sözləri iyunun 14-də jurnalistlərə açıqlamasında deyib.

Nazir qeyd edib ki, bu istiqamətdə fəaliyyət üzrə plan və təkliflərimiz var: "Bu günlərdə biz Çıraqqala abidəsində olduq. Abidədə təmir və bərpa işləri aparılır. Bundan sonra da abidələrin bərpası nəzərdə tutulur. Abidənin bərpa edilməsi məsələsində əsas meyar abidənin əhəmiyyəti, bugünkü vəziyyəti və turizm marşrutu üzərində olub-olmamasıdır.

Nazirə pandemiya dövründə teatrların açılması ilə bağlı sual da ünvanlanıb. Nazir diqqətə çatdırıb ki, bununla bağlı təkliflərimizi vermişik və müsbət rəylər alacağımızı gözləyirik. Dəqiq tarix deyə bilməsək də, teatrların açılma ehtimalı var.

**LALƏ**

# Baş idarənin nümayəndə heyəti Ukraynada səfərdədir

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin nümayəndə heyəti Ukraynada səfərdədir. İyunun 15-də başlanan səfərin məqsədi mədəniyyət müəssisələri arasında əlaqələrin qurulması, təcrübə mübadiləsinin aparılması və birgə layihələrin həyata keçirilməsidir.



Baş idarənin rəisi Cəlil Məlikovun rəhbərlik etdiyi heyət səfərin ilk günü Kiyev şəhərindəki Tarix Muzeyində və T.Q.Şevçenko adına Mərkəzi Uşaq Kitabxanasında, "Darnitsa" Mədəniyyət evində və Səməd Vurğun adına Kütləvi Kitabxanada görüşlər keçirib.

İyunun 16-da nümayəndə heyəti Azərbaycan Respublikasının Ukraynadakı Səfirliyində olub. Heyət ölkəmizin Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Elmira Axundova ilə birlikdə Heydər Əliyev adına parkda ulu öndərin abidəsini ziyarət edib. Abidə önünə tər çiçəklər düzülüb, xatirə şəkli çəkdirilib.

Səfirlikdə keçirilən görüşdə iki ölkə arasında mədəni əlaqələrin inkişafı, o cümlədən Bakı və Kiyev şəhərləri arasında mədəniyyət sahəsində əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.



Daha sonra Kiyev şəhərində dünya şöhrətli müğənni Müslüm Maqomayev adına park ziyarət edilib, sənətkarın abidəsi önünə tər çiçəklər qoyulub.

İyunun 16-da həmçinin məşhur "Kiyev-Peçora Lavrası" Milli Qoruğuna və qoruq ərazisində fəaliyyət göstərən Ukrayna Xalq Dekorativ Səntəti Milli Muzeyinə baxış keçirilib. Muzeyin ekspozisiyası, fond işi, layihələri ilə yaxından tanışlıq olub, ortaq dəyərlər və fəaliyyətlər müzakirə edilib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi nümayəndə heyətinin Ukraynaya səfəri iyunun 21-dək davam edəcək.

# Çıraqqalada bərpa-konservasiya işləri davam edir

## Abidənin Dünya İrsi Siyahısına daxil edilməsi istiqamətində də işlər aparılacaq

Azərbaycan ərazisində Erkən Orta əsrlərin ən möhtəşəm yadigarı – Şabran rayonunda yerləşən Çıraqqala abidəsində iki il əvvəl başlanan bərpa-konservasiya işləri davam edir. Mədəniyyət naziri Anar Kərimov, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli və media nümayəndələrinin iştirakı ilə iyunun 11-də əraziyə baxış keçirilib.



Bərpa-konservasiya işlərini həyata keçirən mütəxəssislər görülən işlər haqqında ətraflı məlumat veriblər.

Baxış zamanı jurnalistlərə açıqlama verən mədəniyyət naziri Anar Kərimov bildirib ki, dünya əhəmiyyətli tarix və memarlıq abidəsi olan Çıraqqalada möhkəmləndirmə, bərpa-konservasiya işləri Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən aparılır. Bərpa-konservasiya işlərinə 2019-cu ildə başlanılıb: "Bugünədək tarixi abidəni ziyarət edənlərin rahatlığını təmin etmək məqsədilə ərazidə yerləşən meşənin içindən qalayadək eni 2 metr, uzunluğu 530 metr olan yol salınıb, tam yararsız vəziyyətə düşmüş körpü qaya daşları ilə bərpa olunub, sıldırım qayalar üzərində qala ətrafı ayaqaltılar quraşdırılıb, baş bürcün dağılmış hissələri bərpa olunub, körpü ilə qala arasında qayalar üzərində yol çəkilib və taxtadan asma pillələr düzəldilib, bürclərarası qala divarları, eyni zamanda ovdan qismən bərpa edilib. Həmçinin ərazidə arxeoloji tədqiqatlar aparıldıqdan sonra aşkar olunmuş tikililərdə əlavə konservasiya işləri həyata keçirilib".

Nazir qeyd edib ki, Çıraqqala müdafiə kompleksinin divarları böyük həcmli daş hörgüdən ibarət olub: "Qalanın baş bürcü qaya üzərində yerləşməyinə baxmayaraq, qaya ilə hörgünün birləşdiyi yerdə hörgüdə böyük aşınma və dağıntılar baş verib. Digər bürc və divarlarda da vəziyyət ürəkaçan olmayıb, qalanın salamat qalan yerlərinin üzlük hörgü hissələrində dağıntılar əmələ gəlmişdi. Hazırda abidədə həyata keçirilən bərpa işləri mühüm əhəmiyyət kəsb edir".

Ulu əcdadlarımızdan bizə qalan bu tarixi mirasın bərpası və gələcək nəsillərə ötürülməsinin vacibliyini qeyd edən Anar Kərimov deyib: "Həmçinin istəyirik ki, belə bir müstəsna əhəmiyyət kəsb edən abidəni beynəlxalq səviyyədə də təbliğ edək. Bununla bağlı planlarımız var. Gələcəkdə bu abidənin və digər istehkam qurğularının UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi istiqamətində də işlər aparmağı düşünürük. Buna görə də 2019-cu ildən başlanan qalanın bərpa-konservasiya işlərinin bu ilin sonunadək bitməsi nəzərdə tutulur. Bürclərin bərpası və ümumilikdə möhkəmləndirmə işləri aparılır. Eyni zamanda buranın turizm potensialının da gücləndirilməsini planlaşdırırıq.

Bununla bağlı bəzi layihə və konsepsiyalarımız var. Bu həm tarixi dəyər baxımından, həm də əraziyə turist səfərlərinin artması baxımından çox önəmli olacaq. Onu da qeyd edim ki, bərpa işləri çətin relyef və hava şəraitində aparılır. Bərpa işlərində Azərbaycan ekspertləri iştirak edir. Eyni zamanda xarici ekspertləri də dəvət etmişik. Onlar gəlib və gördüyümüz işləri yüksək qiymətləndiriblər".

Qeyd edək ki, Gilgilçay müdafiə səddi Xəzər dənizindən başlayaraq Böyük Qafqaz sıra dağlarının dərinliklərinə qədər, 120-130 km uzunluğunda böyük bir ərazini əhatə edir. Səddin baş tikilisi Şabran rayonu ərazisində yerləşən Çıraqqala abidəsi V-VI əsrlərdə inşa edilib. Tarixi abidə möhtəşəm görünüşü və tikinti xüsusiyyətləri ilə inşa edildiyi ərazidə dominant rol oynayaraq, yerləşdiyi məkanın simvoluna çevrilib. Təqribən 2 hektarlıq ərazini əhatə edən "Çıraqqala" mərkəzi qala da daxil olmaqla 17 bürcdən ibarət düzbucaqlı formadadır. Qala və qoruyucu divarların iri miqyasları onların uzun müddətdə, çoxsaylı insan əməyi ilə ərsəyə gəldiyindən xəbər verir.

# Gələcək nəsillərə ünvanlanan əsər

## Milli Kitabxanada "Xilaskarlar" kitabının təqdimatı

İyunun 14-də Milli Kitabxanada Milli Qurtuluş Gününə həsr olunmuş tədbir və Əməkdar elm xadimi, professor Qəzənfər Paşayevin "Xilaskarlar" kitabının təqdimat mərasimi keçirildi.




Milli Kitabxananın direktoru, professor Kərim Tahirov tədbiri açaraq 15 İyun – Milli Qurtuluş Gününün əhəmiyyətindən danışdı. Bildirdi ki, 1993-cü ilin may-iyun aylarında Azərbaycanın müstəqilliyi böyük təhlükə qarşısında idi. Həmin dövrdə xalqımız ümummilli lider Heydər Əliyevi Bakıya dəvət etdi. Xalqın çağırışı ilə hakimiyyətə qayıdan ulu öndərin qətiyyətli addımları və uzaqgörən siyasəti nəticəsində vətəndaş qırğınının qarşısı alındı, Azərbaycan dövləti fəlakətdən qurtuldu.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Milli Qurtuluş Gününü Azərbaycanın dövlətçilik tarixində mühüm hadisə kimi səciyyələndirdi: "Ulu öndər Heydər Əliyev deyərdi ki, bizim gələcəyimiz gənclərimizə nəyi və necə öyrətməyimizdən çox asılı olacaq. İndiki gənclər o dövrün canlı şahidləri deyillər. Həmin prosesləri izləmək imkanına malik olmayıblar. Ona görə də gənc nəslin vətənpərvərlik, dövlətçilik ruhunda daha yaxşı böyüməsi üçün keçdiyimiz tarixi prosesləri onlara geniş öyrətməliyik".

Qənirə Paşayeva kitabın müəllifinə təşəkkürünü bildirdi: "Ümummilli lider Heydər Əliyev bizim doğulub böyüdüyümüz Tovuz rayonunun Düzqırıxlı kəndində iki dəfə olub. O dövrlərdən başlayaraq bütün tarixi proseslərdə Qəzənfər müəllim öz müşahidələrini, fikirlərini, xatirələrini kitabda qələmə almaqla, əslində, bu əsəri oxuyan gənc nəsillərə bir çox vacib mesajlar verir".

Mədəniyyət Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Akif Marifli çıxış edərək Milli Qurtuluş Günü münasibətilə mədəniyyət naziri Anar Kərimovun tədbir iştirakçılarına təbriklərini çatdırdı. Bildirdi ki, 1993-cü ildə, ölkəmizin dar günündə Heydər Əliyev uzaqgörənliyi və dövlətçilik təcrübəsi ilə Azərbaycanı xaosdan qurtararaq xalqımızın yaddaşında əbədi xilaskar kimi qaldı.

AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, kitabın ön sözünün müəllifi, akademik İsa Həbibbəyli qeyd etdi ki, professor Qəzənfər Paşayevin çoxcəhətli fəaliyyətində azərbaycançılıq həmişə xüsusi yer tutub: "Bu vaxta qədər azərbaycançılıq ideallarından əsasən elm və ədəbiyyat baxımından söz açan Qəzənfər Paşayev "Xilaskarlar" kitabında ilk dəfə olaraq azərbaycançılıqdan ictimai-siyasi müstəvidə bəhs edib".

YAP Səbail rayon təşkilatının sədri, professor Şəmsəddin Hacıyev, AMEA-nın Mexanika və Riyaziyyat İnstitutunun direktoru, akademiyanın müxbir üzvü Misir Mərdanov, AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli Milli Qurtuluş Gününün tarixi önəmi, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizin inkişafı naminə gördükləri işlərdən bəhs etdilər, kitabın məziyyətləri barədə danışdılar.

Milli Məclisin üzvü, Xalq şairi Sabir Rüstəmxanlı dedi ki, iki aydan sonra Qəzənfər müəllimin 84 yaşı tamam olacaq: "Qocaman alimin bu gün də yeni əsərlər qələmə alması çox böyük uğurdur. Bu münasibətlə Qəzənfər müəllimi təbrik edir, ona yeni yaradıcılıq uğurları arzulayıram".

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, millət vəkili, akademik, nəşrin redaktoru Nizami Cəfərov vurğuladı ki, kitab dünyagörmüş, fikir və mülahizələrini yığcam təhlillər, müqayisələr və canlı həyati misallarla ifadə etməyə qadir, əsərləri ərəb, ingilis, fars, türk, rus dillərində çap olunan, Şərq və Qərb ədəbi-elmi mühitində yaxşı tanınan professor Qəzənfər Paşayevin xalqın tarixi müqəddəratında müstəsna rol oynayan xilaskarlarımız Heydər Əliyev epoxası və İlham Əliyev erasına dair könül çırpıntılarıdır. Daha çox gələcək nəsillərə ünvanlanan bu yığcam əsər xalqını, dövlətini, Vətənini sevən, ürəyi vətənpərvərlik coşqusu ilə döyünən hər bir azərbaycanlının stolüstü kitabına çevriləcək".

Sonda professor Qəzənfər Paşayev çıxış edərək nəşrin işıq üzü görməsində əməyi olan hər kəsə təşəkkürünü bildirdi.

Qeyd edək ki, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi şurasının qərarı ilə "Təhsil" nəşriyyatında çap olunan kitab ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyev haqqında iki bölmədən ibarətdir.

**Nurəddin MƏMMƏDLİ**

# "Azərbaycanım" rəsm festivalında növbəti plener

Xətai Sənət Mərkəzinin qarşısında "Azərbaycanım" IV Respublika uşaq rəsm festivalı çərçivəsində növbəti plener keçirildi. İyunun 15-də gerçəkləşən plener Milli Qurtuluş Gününə həsr olunmuşdu.




Tədbiri giriş sözü ilə Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov açaraq əvvəlcə plener iştirakçılarını salamladı. Bildirdi ki, plenerin keçirilməsində məqsəd rəssamlıq istedadı olan uşaq və gənclərin bədii zövqünü inkişaf etdirmək, təxəyyül fantaziyasına stimul vermək, eyni zamanda onların əhatə olunduqları mədəni mühitə münasibətini formalaşdırmaq, paytaxt sakinləri və şəhərimizin qonaqlarının təsviri sənətə marağının artmasına xidmət etməkdir.

Xətai Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Pənah İmanov Milli Qurtuluş Günündən və onun Azərbaycan xalqı üçün əhəmiyyətindən danışdı. Bildirdi ki, bu əlamətdar gün Azərbaycan xalqı üçün böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malikdir: "Ulu öndər Heydər Əliyev siyasi hakimiyyətə gələrkən Azərbaycanda çətin ictimai-siyasi vəziyyət hökm sürürdü. Xalqımızın təkidli tələbi ilə 1993-cü ilin 15 iyun tarixində ölkə rəhbərliyinə gələn ümummilli lider Heydər Əliyev Azərbaycanın üstünü alan qara buludları dağıtdı. Ölkəmizdə daxili sabitlik yarandı və gələcək inkişafımızın əsası qoyuldu".

Xətai rayonunda fəaliyyət göstərən Uşaq rəsm yaradıcılıq studiyasının müəllimi Əbdül Şərif uşaqlara yaradıcılıq uğurları arzuladı.

Çıxışlardan sonra uşaq və gənclər Xətai Sənət Mərkəzinin qarşısında açıq havada müxtəlif mövzularda rəsm əsərləri çəkdilər. Plenerə bu ilin fevral ayında elan olunmuş "Yurdumuza bahar gəlir" yaradıcılıq müsabiqəsində fərqlənən uşaqlarla yanaşı, digər balaca istedadlar da qatılmışdı.

Tədbirin sonunda plener iştirakçılarına sertifikatlar təqdim edildi.

Xatırladaq ki, bu il "Nizami Gəncəvi İli"nə həsr olunan "Azərbaycanım" IV Respublika uşaq rəsm festivalı Mədəniyyət Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, paytaxtın Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı, Naxçıvan Rəssamlar Birliyinin dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilir.

**Savalan FƏRƏCOV**

# Çeşmə axımlı, şimşək çaxımlı...

## Ecazkar "Şəbi-hicran..." nəzmini füsunkar "Füzuli kantatası"na çevirmiş Cahangir Cahangirov



Əsrlər idi ki, o əsrarəngiz nəzmdəki sehranə misralar bu xalqın kütleyi-mütaliə mərtəbəsinə yetə bilmir, eləcə, bir-birini əvəz edən nəsillərin bir qisim söz xiridarı – "arifi-əsrar"ları içərisində cilvələnirdi. Elə ki dahi Üzeyir bəy Bulağından doyunca içmiş bu bəstəkar həmin kəlamlara belə bir bəstə Məcnunluğu etdi, o "hər işi xəlqə rüsva" Aşiqin də "qara bəxti" (əlbəttə, kütləvi anlanış sarıdan) oyandı...

İlk abzasdaca işlətməli olduğum "qarabəxt"lik nüansı mənə bu bəstəkarın uşaqlıq və gənclik çağlarında yaşadığı çətinlikləri xatırlatdı. Bunları onun doğulduğu (1921) Balaxanı kəndində eşitmişdim; atası müharibədən qayıtmayıb, bircə dənə də fotoşəkli olmayan ("Mən surətimi özgə adamlara göstərmərəm, ayıbdır") anası otuz beş yaşında vəfat edib və Cahangir üç qardaş-bacısını oxudub-dolandırmaq zorunda qalıb.

Bu korifey bəstəkarın bir insan kimi də böyüklüyünün izharı üçün sözümü bacısı (mərhum müğənni Yalçın Rzazadənin həyat yoldaşı) Roza Rzazadənin xatirələrilə davam etdirirəm.

"Cahangir bizə həm ana olub, həm ata. Elə ilk gəncliyindən ailəmizin yükünü çəkib.

Çox həssas, çox ürəyiyumşağıydı Cahangirimiz. Birimizi gözüyaşlı görəndə özünə yer tapa bilmirdi...

Onun musiqiyə yönəlməsi bir gün anamın dükandan alıb onun yastığının altına qoyduğu bir "balalayka"dan başlayıb...

Daha nə danışım... Cahangirin adı gələndə, Cahangirdən söz düşəndə hər şeyi unuduram. Məni o qədər çox istəyirdi ki! Elə bil onun iki bacısından biri yox, madar övladıydım...

Üzeyir bəylə tanışlığı 15 yaşından başlayıbmış. Kimsə Cahangirin musiqi qabiliyyətindən danışıb, Üzeyir bəy də çağırıb yanına, musiqisinə qulaq asıb və yanındakılara deyib, bu böyük uşağa həmişə, hər yerdə diqqətlə yanaşın...

Rəşid Behbudovla "Ana" mahnısının məşqini də yaxşı xatırlayıram. Qapıdan gizlincə baxırdım. Mən Rəşid böyüklüyünü bax hələ o balaca yaşlarımdan kəşf etdim!

Təbiəti çox xoşlayırdı. Dənizə baxmağı sevərdi, baxanda da gözləri yol çəkərdi; bəlkə atamızın yolunu dənizdən gözləyirmiş...

Ən çox "Ana" mahnısını zümzümə edərdi…

Ömrünün sonlarında məni daha çox görmək istəyirdi. Deyirdi, tez-tez gəl, gec-gec get...

Qarabağın taleyindən çox narahat idi. Bir gün də, xəstəliyinin şiddətləndiyi vaxt, Qarabağdan, Şuşadan (hələ işğal olunmamışdı) bir xeyli danışdı, axırda dedi, bilmirəm, Üzeyir bəyin ruhu hüzurunda nə danışacağam...".

O elə yaşayıb, elə məhsuldar bir ömür sürüb ki, bizlərin deməyə sözü çox...

### Öncə...

"Qaçaraq" ("başını qaşımağa vaxt tapmayanlarçün") və kütləvi xatırlanası nümunələrdən bir neçəsi: "Yenilməz batalyon" filmindəki "Teymurun mahnısı", "Koroğlu" filmindəki "Xanəndə qızın mahnısı", "Dəli Kür"dəki "Ana Kür" və s. "Bayatılar" adıyla tanıdığımız nəğməni, "Gül camalın" romansını, "Ənəlhəq" mahnı-romansını, "Eşitməzdim" qəzəl-romansını da yad edək.

"Ənənəvi", "sıravi" mahnıları isə...

Bu vurğu onun mahnılarındakı məxsusi lad-dad elementlərilə bağlı...

Məsələn, "Ana" mahnısını xəyala alın (və təbii, "əli üzündə" qalın)... Və belə bir nüansın da fərqinə varın; bu mahnı, musiqi müəllifindən əlavə, neçə-neçə sənətkar üstünə də parlaq işıq-şəfəq saçıb! Əlbəttə, ən əvvəl, şeir müəllifi İslam Səfərlinin və o çağlar o mahnını bənzərsiz "solo"layan tarzən Hacı Məmmədovun. Və... bu can nəğməni bütün azərbaycanlı övladlar ağzından avazlayan unudulmaz Rəşid Behbudovun! Bu cəh-cəhlər ustadının o mahnıdakı sonsuz bəh-bəhlərə layiq bir ustalığının – "Dilinin o həzin laylasına qurbanam" misrasındakı işarə əvəzliyinə (o... o... o...) əsrarəngiz bir tembrlə "züy" edib, könüllərimizə nə toy tutduğunun fərqindəsizmi, ey haçansa radio dinləyicisi, televiziya tamaşaçısı olmuş (olası) hörmətli oxucularımız?!.

Bu könüllər bəstəkarının "Alagöz", "Ay qız", "Dan ulduzu, bir də mən", "Aylı gecə" və s. mahnılarının dillər əzbəri, könüllər bəzəyi olması haqda da geniş danışmağa ehtiyac yox...

Amma xüsusi bir vurğu ilə –

### Deyək ki...

Bu bəstəkar otuz səkkiz yaşında yazdığı "Füzuli" kantatası ilə o dövr mühafizəkarlarının "çoxsəslilik Azərbaycan musiqisinə yad elementdir" fikrini alt-üst edib. Ötən əsrin ilk onilliyinə (milli mədəniyyət taleyimizə möcüzətək doğulan "Leyli və Məcnun" operasına) qədər dədə-nənələrimizin xor baxdığı bir musiqi janrında ha! "Opera", "balet", "süita", "kapriçço" kimi (yadel-yaddil) terminlərin leksikonumuza oturuşmadığı çağlarda...

Bu nüanslar sözügedən kantatanın gah həzin-həsrəti, gah qalib-qələbəli takt-aktlarından da hiss olunur. Elə zaman-zaman mətbu müsahibələrindən, teleradio çıxışlarından bu da məlum olur ki, müəllifin özü də, bu əsər üzərində işlərkən, daha çox, burada vurğuladığım məqamlara üstünlük verib. Yəni o, bu kimi çoxsəsli əsərlərin milli mədəniyyətimizə qovuşumunadək müxtəlif səbəblərdən (xalqın tərəkəmə-tərkeləmə "atüstü"lüyü, dini mərsiyə-mərasimliyi, "qırx gün-qırx gecə"lik nağıl-dastan, toy-nişan birəntiliyi istisna edilməklə) Aşıq Cünun monokültürçülüyündən sintetik (ümummilli) qavranışa gəlməkdə çətinlik çəkən xalqımız üçün çox gərəkli bir işi davam etdirdiyinin fərqində olub.

Bu şəxsi-subyektiv mülahizələr ardınca, sosial "hamılıq-ümumilik" mahiyyəti daşıyan "XOR" haqda –

### "Solo" qeydlər...

"Xor". Bu musiqi-mədəniyyət termini həm də milli toparlanma məsələsini ehtiva etmirmi?

XORluq – sosial mənada birlik, birəntilik, hərbi anlamda yumruq!...

Təəssüflər ki, bu heynidə (hə, milli əyər-əskiklərdən söz düşəndə, ümummilli ədəb-ərkan nəhəngimiz M.Cəlilin ibarələrindən qaçmaq olmur) ilk olaraq özümüzü yox, gürcüləri xatırladım. O xalqın ev-eşik, qərib-qürbət məclislərində (süpürgəçisindən sərkərdəsinə, əkin-biçinçisindən yüksək çinli məmurunadək) buynuz badəli əl-qollarını çarpazlayıb, öz brend çaxırlarından vura-vura, etno-sosial bərabərlik xoru oxumalarının fərqindəyikmi, cənab "heçim ayrı-köçüm ayrı" məsəlli BİZLƏR?!...

Ancaq həm də alqışlar ki, cəmiyyətimizin məişət mədəniyyəti odasına gecikən bu cəm-canlıq, birlik-birəntilik iksiri, Yaxın Şərqdə ilk olaraq bizim sənət mədəniyyətimizə yol tapdı; əsasını ötən əsrin əvvəllərində öz "Leyli və Məcnun" baniliyi (və dahiliyi!) ilə Üzeyir bəy Hacıbəyli qoydu, Cahangir Cahangirov isə öz "Füzuli" kantatası şedevrilə davam etdirdi.

XORluq xüsusundan bunu da deyək ki, dahi Eşq kanı-söz Sərdarı Məhəmməd Füzuli, sözün bu məqamında bəy bəstəkar Cahangir Cahangirov və xanım-xatın nəğməkar Şövkət Ələkbərova birəntiliyindən yaranmış "Füzuli" kantatası xəlqi bir ruh toplumu...

Bu sənət toplumunun "sərikuyinə" varaq... Kimin də avaz gücü nəyə yetir, bu ilahi misraları zümzüməsin:

*Şəbi-hicran yanar canım,*
*Tökər qan çeşmi-giryanım...*

Davamını nəzm ilə yazmaq əzmim tükəndi...

Nədən ki, "Oyadar xəlqi əfğanım" nişanlı üçüncü misradan sonrakı xitab-sual alovu adamın əhədini kəsir!

...Ay beş yüz ildi o əfğandan oyanıq xəlq, eşidirsən? Hiss edirsənmi, duyursanmı, görürsənmi – Füzuli kəlamlı, Cahangir rübablı, Şövkət sədalı o "Qara bəxtim oyanmazmı" xitabını?!...

Sonralar üslub, tərz-tərənə yolu neçə-neçə gənc bəstəkar tərəfindən davam etdirilən C.Cahangirov bu kantatadan on il öncə solist, xor və simfonik orkestr üçün yazdığı "Arazın o tayında" adlı vokal-simfonik poemasını bitirəndə hələ iyirmi səkkiz yaşı tamam deyildi. Amma bu əsər ondan xeyli yaşlı SSRİ-nin mərkəzi Moskvada "qocaman düşüncələr poeması" kimi qarşılanmışdı (Ümumittifaq Radiosunun "qızıl fond"una daxil edilib, müəllif SSRİ Dövlət mükafatı laureatı adına layiq görülüb).

Çoxları gözləyirmiş ki, həmin uğurundan sonra bu gənc nəfəsdərməz bir templə yazıb-yaradacaq. Amma yox, Cahangir növbəti mükəmməl-fenomenal xor nümunəsi olan "Füzuli" kantatasına qədər bu janrda onlarca miniatür, neçə-neçə qor mahnılar yaza-yaza gəlib çıxıb – dünyəvi musiqi mədəniyyəti karvanına qoşulan "Füzuli" zirvəsinə.

Poeziyamızın möcüzəvi Füzuli kəlamlarından ilhamlanaraq yazdığı bu triumfal əsərilə bəstəkar Cahangir Cahangirov sözün məcazi, müstəqim və "coğrafi" anlamında ayaq izi dəyməmiş bir zirvəyə yüksəlib (mənə qalsa, "musiqi Füzuliliyi"nə yetib).

Korifey sənətkar bu əsərdən on dörd il sonra yazdığı "Nəsimi", bir qədər sonrakı "Aşıq Alı" kantataları, 1962-ci ildə tamamladığı "Sabir", 1984-də bitirdiyi "Hüseyn Cavid" oratoriyaları ilə həmin sənət nəhənglərimizi yeni və daha lətif bir vasitəylə - musiqi diliylə geniş oxucu-dinləyici auditoriyasına təqdim etdi. "Azad" (1957) və "Xanəndənin taleyi" (1978) operaları ilə "Üzeyir bəy Hacıbəyli davamçısı" statusuna nail oldu.

### "Şəbi-hicran"...

Dörd yüz ildən çox idi ki, bu əsrarəngiz misralar bu xalqın kütlə səddini aşa bilmir, yalnız bir-birini əvəz edən nəsillərin bir dəstə söz xiridarına, "arifi-əsrar"larına çatırdı. Nədən ki, o vaxt aşiqlər Aşiqi Füzuli bu möcüzə kəlamları təkcə-tənhaca (uzaqbaşı Məcnunla "müştərək") bəyan etmişdi. Elə ki 38 yaşlı Cahangir bunu mümkün "səhnə xalqı"nın ifasına təqdim etdi, - hamıya çatdı...

Bu məqamda, 1992-nin martında dünyasını dəyişmiş, Fəxri xiyabanda dəfn edilmiş bu sənətkarımızı birlikdə xatırlayıb, xorla deyək: Allah rəhmət eləsin...

**Tahir ABBASLI**

# Parka sirk gəlib...

Bir qrup uşaq bir-birinə bu xəbəri verə-verə Zabitlər bağının girişindən mərkəzdəki meydana tərəf yüyürürdü. Parkın ortasında qurulan səyyar manej və əsl bayram ovqatı yaradan orkestrin canlı ifası, əslində, böyükləri də ora dartırdı.





Mənzərə seyr etməyə dəyərdi. Çünki nə parkın içindəki gözəgəlimli məkanlardan yayılan dadlı təamların qoxusu, nə də rəngarəng attraksionların cəlbedici çağırışı çoxluğun diqqətini belə cəlb etmirdi.

Budur, qısa zamanda tamaşaçılar maneji dövrəyə aldılar. Sevinən və ən ön sıraya tələsən uşaqlar, az qala onlara aman verməyən böyüklər kənardan baxılmağa dəyər mənzərə idi. Deməli, insanlar ilyarımdır davam edən pandemiya şəraitində səhnə, manej, sənət nümayişi üçün çox qəribsəyiblər.

Bu tədbirin həyəcanlıları təkcə tamaşaçılar deyildi. Səbəbkarlar – 75 yaşını tamaşaçıları arasında qeyd edən Bakı Dövlət Sirkinin köhnə-yeni heyəti də eyni hissləri bölüşürdülər. Xüsusən də yenilənmiş, daha doğrusu, yenidən təşkil olunmuş milli sirk truppasının üzvləri. Odur ki, şırma arxasından gah manejə, gah da ətrafdakılara həyəcan qarışıq sevinclə göz gəzdirir, son qısa baxış-məşqlərini edirdilər.

Pandemiyanın kütləvi tamaşaçını teatr-konsert müəssisələrinə həsrət qoyduğu bu ağır məqamda meydan tədbiri, xüsusən də sirk nümayişi lap göydəndüşmə idi və tamaşaçılar yeni heyətdən çox şey gözləyirdi.

Aparıcı elan edir və görəcəklərini telefonlarının yaddaşına köçürüb başqalarına da göstərmək istəyənlərin müşayiətində yubiley tədbir-konsertinə start verilir. Bakı Dövlət Sirki yenidən təşkil olunan milli truppasını tamaşaçı qarşısına çıxarır.

12 iyun tarixinin seçilməsi də təsadüfi deyil. Çünki 75 il öncə bu gün ilk milli truppa sirk adlı qədim və əsrarəngiz səhnə sənəti ilə tamaşaçını peşəkar səviyyədə tanış edib. 1946-cı il iyunun 12-də dahi bəstəkar Üzeyir Hacıbəylinin təşəbbüsü ilə yaradılan Azərbaycanın ilk peşəkar sirk kollektivinin premyerası – "Azərbaycan toyu" adlı bədii-etnoqrafik tamaşa nümayiş olunub. Proqramın rejissoru Soltan Dadaşov, bəstəkarı Səid Rüstəmov, baletmeysteri Əminə Dilbazi, mətnin müəllifi Süleyman Rüstəm olub. Tamaşada pəhləvan Sali Süleyman, akrobat Fuad Nəzirov, kəndirbaz Rza Əlixan, atlet Qasım Abdullayev və başqaları çıxış ediblər.

Bizi o tarixdən ayıran zaman kəsiyində bir neçə dəfə truppası formalaşan, maraqlı və yaddaqalan proqramları ilə bu unikal sənəti milyonlarla tamaşaçıya sevdirən yubilyar Bakı Dövlət Sirkinin yeni heyət və truppası iddialıdır.

Proqramda sirk sənətinin janrlarına aid olan biri-birindən maraqlı nömrələrə yer verilmişdi. Tamaşaçılar ənənəvi sirkin ən maraqlı, baxımlı elementlərindən ibarət nömrələr izlədilər.

Əslində, cüzi qüsurları nəzərə almasaq, ilk təqdimatı uğurlu hesab etmək olar. Bir az da universal. Bir növ bütün yaş qruplarında tamaşaçı üçün baxımlı və maraqlı.

Milli truppanın çıxışlarını Bakı Dövlət Sirkinin orkestr heyəti canlı olaraq müşayiət edirdi. Bu da nümayişi bir az da templi hiss etdirirdi. Tamaşaçılar Əməkdar incəsənət xadimi Azad Quliyevin rəhbərliyi ilə Azərbaycan və xarici musiqilərin sintezindən ibarət mini konsert proqramını da maraqla dinlədilər.

Yarım saata yaxın sürən proqramda Bakı Dövlət Sirkinin 47 nəfərlik yaradıcı heyəti iştirak edirdi ki, onların arasında yaddaqalan nömrələri xüsusilə qeyd etməliyəm. Məsələn, uşaqlar alov şou və sehrbaz nömrələrinə yenə də heyranlıqla tamaşa etdilər. Jonqlyor və akrobatlar da səhnəni ələ almaq və bütün tamaşaçılara xitab etmək üçün əllərindən və ayaqlarından gələni etdilər. "Kauçuk qız" nömrəsi də baxımlı və estetik alınmışdı.

Ümumən, uzun fasilədən sonra tamaşaçı ilə canlı və sirk estetikası baxımından ənənəvi olmayan formada qarşılaşan aktyorların çıxışları gərgin məşqin nəticəsi kimi alqışlanmalıdır. Onlar üzərlərinə düşən işi texniki həll baxımdan da qüsursuz icra etməyə çalışdılar.

Truppaya yeni dəvət olunan və artıq özünəməxsus tamaşaçı auditoriyası toplayan keçmiş-indiki pantomimçilərin çıxışları da baxımlı idi. Bu, yeni olmasa da, tamaşaçılar üçün peşəkar teatr elementləri ilə sirkin sintezi baxımından yaxşı düşünülmüşdü.

Proqramın sonunda orkestrin ifasında "Azərbaycan cəngisi"nin cazla sintezi və o musiqinin sədaları altında tamaşaçı alqışı səhnədə-manejdə baş verənlərdən məmnunluğun nümayişi idi.

Yəqin bundan sonra 12 iyun tarixi Bakı Dövlət Sirki üçün növbəti əlamətdar hadisə – mədəniyyət ocağının 4-cü dəfə formalaşdırılan milli truppasının ilk çıxışı kimi də yadda qalacaq və onu daha maraqlı proqramlara həvəsləndirəcək.

**Həmidə NİZAMİQIZI**

# "Tarixi səhnə"də xatırlanan anlar

Artıq bir neçə müddətdir ki, "Mədəniyyət" kanalı ölkənin əsas konsert salonu olan Heydər Əliyev Sarayının 50 illiyi münasibətilə "Tarixi səhnə" adlı layihəni təqdim edir. Layihənin növbəti qonağı Xalq artisti İlham Namiq Kamal olub. Sənətkar sarayın səhnəsində çıxışları, bu səhnədə yaşadığı ən gözəl xatirələri dilə gətirib.

"Möhtəşəm Heydər Əliyev Sarayı... Bu sarayın özünəməxsus işığı, nuru var" deyən Xalq artisti bu məkanda ilk çıxışının 1974-ci il mayın 31-də olduğunu xatırlayır: "Azərbaycan Teatrının 100 illik yubileyi ilə əlaqədar təşkil edilən tədbirdə ulu öndər Heydər Əliyev də iştirak edirdi. Bu, ömrümün unudulmaz anlarından biri kimi qəlbimdə yaşayır".



Sənətkar deyir ki, Heydər Əliyev Sarayının, bu tarixi səhnənin bir sehri var və bu sehrdə hər kəs özünü xoşbəxt hiss edir: "Burada Azərbaycan kinosunun 100 illiyinə həsr olunan tədbiri də xatırlayıram. Həmin tədbirin ssenarisində Cahangir Aslanoğlu çox maraqlı nüansları qeyd etmişdi. Azərbaycan filmlərinin adlarından ibarət çox maraqlı bir monoloq yazmışdı ki, həmin monoloqu demək də mənə qismət oldu... Yəqin ki, sənətsevərlər xatırlayar, sarayın qarşısında bir afişa var idi – "Mahnı. Yumor. Rəqs". Bu konsert həmişə anşlaqla qarşılanırdı. Hacıbaba Bağırov, Hüseynağa Sadıqov, Gülşən Qurbanova, Telman Adıgözəlovla bu konsertlərdə tərəf-müqabil olmuşam. O dövrdə direktor Kərim Kərimov, rejissorlar Gülçöhrə Şəfiyeva və Cahangir Aslanoğlunun burada hazırladığı gecələri xatırlamamaq mümkün deyil".

"Tarixi səhnə" ilə bağlı ən duyğusal xatirələrini bölüşən aktyor yaradıcılığında mühüm mərhələ olan, tamaşaçılar tərəfindən sevilən və yaddaşlarda qalan "Dadaşbala əməliyyatı" tamaşasının Heydər Əliyev Sarayında 6 dəfə anşlaqla nümayişindən də söz açır: "Tamaşaçılar bu səhnədən tamaşanı sevə-sevə izlədi və o bütün Azərbaycanda məşhur oldu. Cahangir Aslanoğlu və Həsənağa Qurbanovun "Qarğa, məndə qoz var" musiqili komediyasının da premyerası bu səhnədə olmuş və böyük maraqla qarşılanmışdı. Düşünürəm ki, bu səhnədə çıxış etməyin bir xofu vardı, bu məsuliyyətin öhdəsindən hər zaman yalnız peşəkar sənət insanı gələ bilər".

Xalq artisti deyir ki, ulu öndər Heydər Əliyevin mədəniyyətimizə göstərdiyi diqqət və qayğı, dəfələrlə bu sarayda sənət xadimləri ilə görüşləri bu ocağı daha da işıqlı edirdi: "Ulu öndər yumoru çox sevirdi. Hər il burada dövlət tədbirlərindən, partiya plenumlarından sonra bədii hissə təşkil edilirdi. Ulu öndər deyirdi ki, konsert proqramına yumor da daxil edilsin. Salam Qədirzadə, Cahangir Aslanoğlu konsertlər üçün yumor parçaları yazardılar. Çox maraqla qarşılanırdı".

Vaxtilə rəhbərlik etdiyi "İlham" Miniatür Teatrı ilə birlikdə sarayın baş redaktoru və rejissoru Cahangir Aslanoğlunun 75 illik yubileyinin keçirilməsini də xatırlayan sənətkar mədəniyyət naziri olan Polad Bülbüloğlunun həmin tədbirdə çıxışını yada salır.

Bütün veriliş boyu xatirələrini böyük sevgi ilə dilə gətirən İlham Namiq Kamal bildirir ki, gələn il Heydər Əliyev Sarayının 50 illik yubileyi qeyd ediləcək. Bu yubileydə hər bir sənət adamının deməyə sözü olacaq.

Veriliş boyu aktyorun sarayın səhnəsindəki çıxışlarından videolentlər də təqdim olunub.

**Lalə AZƏRİ**

# Vətənə fəda üç dost

Atalarımızın dost, dostluq məfhumları ilə bağlı xeyli gözəl deyimləri, məsəlləri var. Hərəsi də ayrı bir hikmət, həqiqət yüklü. Onların arasında yaşadığımız çətin məqamlarda sınaqdan keçirib, saf-çürük etdiyimiz dostlardan bəhs edən bir atalar sözümüz də var: "Dost dar gündə tanınar".

Bəli, biz xalq, dövlət olaraq dostlarımızı, elə düşmənlərimizi də ölüm-dirim savaşı meydana atıldığımız məqamda bir daha tanıdıq...

İkinci Qarabağ müharibəsi dünyanın da gözü qarşısında tarixi Zəfərimizin isbatı olmaqla yanaşı, həm də bir xalq kimi məğrurluğumuzun möhtəşəm tablosu idi. Savaş meydanına ən müasir hərbi-texniki vasitələr, ən ağlagəlməz döyüş taktikaları ilə gedən ordunun ən böyük ümidi, ən etibarlı təminatı, təbii ki, ölümü gözə alan yüzlərlə, minlərlə igidi idi. Vətən şərəfini, millət təəssübünü çəkib onun uğrunda gözünü qırpmadan canını fəda edən ərənləri.

Bu dəfə adına dastanlar bağlanıb, əfsanələr qoşulacaq qürurlu, mərd və sınanmış Vətən oğullarından, yaş fərqlərinə baxmayaraq, əqidə, can dostu olan üç cəsur haqqında söz açacağam.

Savaş meydanının ayrı-ayrı cəbhələrinə bir-birindən xəbərdar yollanıb, bir-birindən xəbərsiz şəhadət vüsalı üç dost da var idi. Doğulduqları Cəlilabad rayonunun Alar kəndində əbədi məkan quran bu üç dost indi bütün mahalın qüruru, and yeri, ziyarət ünvanıdır.

***

Üçlüyün ilki, əslində, hərb və həyat yolu ilə özündən sonrakılara nümunə olan Ramin Hüseynağa oğlu Bayramovdur.

Ramin 8 oktyabr 1979-cu ildə Alar kəndində anadan olmuşdu. 1986-1996-cı illərdə kənd məktəbində orta təhsil alan qəhrəmanımız Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin məzunudur. 2000-ci ildə – ali təhsilini başa vuran kimi həqiqi hərbi xidmətə yollanan R.Bayramov ordudan 2006-cı ilin 1 iyulunda baş leytenant rütbəsi ilə ehtiyata buraxılır.

Bu illər ərzində müxtəlif sahələrdə çalışaraq arzularını bir-bir həyata keçirən Raminin tək nisgili torpaqlarımızın hələ də yağı işğalında qalması idi. Xüsusən müharibədən öncəki son hadisələr onu özündən çıxarır və ora – qaynar nöqtəyə səsləyirdi. Tovuz hadisələrindən sonra dostuna göndərdiyi səs yazısında "Müharibə başlasaydı, biz də gedərdik. Adamın bağrı çatlayır. Heç olmasa, biz də qisasımızı alardıq", – deyə qeyd edirdi. Yəqin elə bu təskinliyinə görə idi ki, səfərbərlik elan olunan günü müvafiq komissarlığa yollanır və yaxınlarına da oradan birbaşa cəbhəyə gedəcəyini deyir. O, sentyabrın 28-də artıq ön cəbhədə idi. Yaxınları onun savaşın, qan-qadanın içinə deyil, sanki toy-düyünə gedirmiş kimi sevinclə, qürurla, tələsə-tələsə, həyəcanla getdiyini deyirlər.

Bölük komandiri vəzifəsini icra edən baş leytenant ən qaynar nöqtələrdə, ən ağır döyüşlərdə sona qədər vuruşur. Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının düşməndən azad edilməsi uğrunda böyük şücaət göstərir. O da döyüş yoldaşları kimi Şuşa, Cıdır düzü, İsa bulağı həyəcanı ilə irəli can atır. Sözün əsl mənasında, "Sonunu düşünən qəhrəman olmaz" prinsipi ilə qorxmadan, düşünmədən vuruşur. Vətən müharibəsinin Zəfərlə başa çatmasına sayılı günlər qalarkən


Ramin Bayramov


Taleh Əlizadə


Bilal Rzayev

Qubadlı istiqamətində şəhadətə ucalır. Noyabrın 11-də Alar kəndində dəfn edilən şəhidimizin igidlik, cəsarət missiyasını Yusif və Yunus adlı iki oğlu və intizarlı gözləri yollardan yəqin hey vaxt yığılmayacaq qızı Nərmin davam etdirir.

Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunan, uğrunda şəhadətə ucaldığı Vətənini canından çox sevdiyini ömürlük yaddaşımıza yazan şəhidimizin həyatı da yetişən nəsillər üçün bir örnəkdir.

***

Ramin kimi şərəfli yolla gedib, şəhadət məqamına ucalan igidlərdən biri də Talehdir. Taleyinə gənc yaşında şəhidlik yazılan, ürəyi sonsuz arzulara məskən Taleh.

Taleh Zaur oğlu Əlizadə 29 noyabr 1995-ci ildə anadan olub. 2002-2013-cü illərdə kənd orta məktəbində təhsil alıb. Uşaqlıqdan arzusu hərbçi olmaq, kəşfiyyatçı kimi işğal altındakı torpaqlarımızı görmək idi. Buna görə də həqiqi hərbi xidmətə çağırılarkən tərəddüdsüz kəşfiyyatçı olmaq niyyətini bildirir. Çevikliyi, cəsurluğu, iti zəkası sayəsində hərbi rəhbərliyi onun bu istəyinə biganə qalmır.

Qazaxdakı N saylı hissədə başlanan hərbi xidmət yolunu kəşfiyyatçı kimi uzaq hədəflərə yetirir. Təhlükəli, riskli işə baş qoyduğunu aydın dərk etdiyindən hərbi xidməti barədə məlumatı ailə üzvlərindən də gizlədir.

Sözünə sadiq, əməlində dürüst Talehin gələcəklə bağlı arzularının başında hərbçi kimi xidmətini davam etdirmək dururdu. Amma təəssüf ki, bu istəyinə çata bilmir. Atasının ağır xəstəliyə tutulduğunu biləndən sonra tərxis olunur və evə dönür.

Onun da ürəyi işğal altındakı torpaqlar üçün döyünür, kəşfiyyatçı kimi orduya çağırılacağı məqamı gözləyirdi. Bu arzusu, tələsdiyi bu istəyi 2020-ci ilin 21 sentyabrında reallaşır. Taleh də hərbi təlim məqsədilə ordu sıralarına çağırılır.

İntizarlı anasına, qürurlu atasına, kədərli xanımına təsəlli verə-verə, "Qorxmayın, erməni kimdir ki, qabağımızda at oynada? Gedəcəm, salamat da qayıdacam. Nəsə olsa da, ağlayıb-eləməyin, məni oğlum əvəz edər" deyib yola düşür.

Döyüş yolu Füzulidən başlayan Taleh ayağından yaralansa da, müalicəsi bitmədən yenidən ön cəbhəyə qayıdır. Ona "Yaralısan, hələ tam sağalmamısan" deyənlərə də "Orada mənim igid qardaşlarımın qanı axıdılır. Hər gün şəhid verə-verə bir kəndimizi, bir rayonumuzu azad edirik. Oturub burda ürəyimi partlada bilmərəm. Başqa düşün, mən orda olmalıyam" deyib yenidən qanlı döyüş meydanına atılır. Oktyabrın 12-dən Cəbrayıl istiqamətində döyüşə girir və başından yaralanaraq şəhadətə yüksəlir.

Oktyabrın 20-də həyatının ən gözəl illərinin keçdiyi Alar torpağı ona yenidən qucaq açır və döyüşdən "Vətən uğrunda" medalı ilə dönən oğlu sayəsində bir az da müqəddəsləşir.

Şəhidin anası Lətifə xanımın yeganə arzusu oğlunun yadigarı Hüseynlə Talehin qanının töküldüyü Cəbrayıl torpağını qarış-qarış gəzmək, onun ayağının dəydiyi torpaqları öpüb qoxulamaqdır.

***

Alarlıların məzarını tər qızılgüllərlə bəzədiyi şəhidlərdən biri də Bilaldır. Cəbhəyə gülə-gülə, qalibiyyət üçün gedən, onu yola salmağa gələnlərə də "Qayıdacam, evdəkilər təkdi, başqa variantım yoxdu" əminliyi verən qorxmaz Bilal.

Bilal Novruz oğlu Rzayev 1997-ci ildə doğulub. 1 saylı Alar kənd orta məktəbində təhsil alan Bilalın gələcək planları, böyük arzuları var idi. Lakin atasının qəfil dünyasını dəyişməsi ilə o da arzularının üzərindən xətt çəkib ailənin – anasının, bacı-qardaşının yükünü kövrək çiyinlərinə çəkmişdi.

Həqiqi hərbi xidmətini bitirən kimi də yenidən məsul olduğu ailəsinin yanına qayıdır. Bir müddət işləyib köhnə bir avtomobil alaraq taksi xidməti ilə məşğul olur. Həyatını çətinliklə, məhrumiyyətlərlə də olsa, nizama salmağa, bacı-qardaşının qayğısına qalmağa başlayır. Bu dəfə də həyat onun arzularını, planlarını yarıda saxlayır.

Vətən savaşının başlanması ilə o da könüllü olaraq çox sevdiyi, anam dediyi ana yurdun düşmən tapdağından azad olunmasına qoşulur. Qorxmazlığı sayəsində o da qısa zamanda komandirlərinin, silahdaşlarının sevimlisinə çevrilir. Şux zarafatları, döyüşlərdən uğurla çıxmaq planları ilə həm özünə, həm də hər an ölümlə üz-üzə olan dostlarına ürək-dirək verməyə çalışırdı.

O da şəhadət şərbətini içənədək vuruşdu. Düşmənə aman verməmək üçün əlindən gələni etdi. Ruhu azad Vətənin səmasında azadə dolaşan Bilalın cismi doğma Alar torpağı ilə 24 noyabr 2020-ci ildə qovuşdu.

Şəhadətini "Vətən uğrunda" medalı ilə bəzəyən, onu tanıyanları əbədi kədərə boğan Bilaldan bizlərə qalan yeganə təsəlli azad Vətən torpağıdır...

**Həmidə NİZAMİQIZI**

# "El sənətdən, sənət eldən ayrılmaz..."


Ötən əsrdə mahir ifası və bədii yaradıcılığı ilə aşıq sənətində iz qoyan, ustad ünvanı almış sənətkarların adı çəkiləndə Əməkdar mədəniyyət işçisi Aşıq İmran da yada düşür. O, qədim Göyçə elimizdən qopan, saz ifaçılığı ilə poetik irsi bir-birini tamamlayan aşıqlardandır.

İmran Mehralı oğlu Həsənov 1928-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Ağbulaq kəndində anadan olub. Məlumdur ki, Göyçə eli Azərbaycan aşıq sənətinə görkəmli sənətkarlar bəxş edib. Bu mühit aşıq sənətinə Dədə Ələsgər kimi ustad yetirib. Uşaqlıqdan aşıq sənətinə maraq göstərən İmran da ustadlardan dərs alıb, bu ulu mirası yaşatmaq istəyirdi. O, saz sənətinin incəliklərini ilk olaraq əmisi Aşıq Dünyamalıdan öyrənir. Daha sonra gədəbəyli Hüseyn Quliyev, göyçəli Məhərrəm Hacıyev və Hüseyn Dəmirçi kimi sənətkarlardan yaradıcı şəkildə bəhrələnir.

Gənc İmran el şənliklərində yaxından iştirak edir. Şaqraq və məlahətli səsi onu musiqisevərlərin sevimlisinə çevirir. Zil tembrli səsə malik olduğuna görə müasirləri ona hələ sağlığında "Koroğlu aşığı" deyirlər.

İmran Həsənov 1950-ci ildə Tovuz rayonuna köçür. Bu aşıqlar yurdunda da hörmət və məhəbbətlə qarşılanır. İlk olaraq ustad sənətkarlar Aşıq Əsəd və Aşıq Mirzə ilə tanış olur. Onlarla birlikdə el şənliklərinə və dövlət tədbirlərinə qatılır. İstedadlı sənətkar kimi tanınmağa başlayır.

Aşıq İmran 1956-cı ildə Bakıda təşkil olunan respublika müsabiqəsində 1-ci dərəcəli diploma və qızıl medala layiq görülür. Bir il sonra Moskvada keçirilən ümumittifaq müsabiqəsində də eyni uğura nail olur. O, rəhbərlik etdiyi Tovuz aşıqlar ansamblı ilə 1957-ci ildə Moskvada keçirilən tələbə və gənclərin 6-cı ümumdünya festivalına qatılır. Bu festivalda da qızıl medal və 1-ci dərəcəli diploma layiq görülür. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyünə qatılır. Uğurlu çıxışına görə "Şərəf nişanı" ordeni və fəxri fərmanla təltif edilir. Azərbaycan mədəniyyətinə göstərdiyi xidmətlərinə görə əməyi yüksək qiymətləndirilən sənətkar 1967-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adını alır. Aşıq İmran Azərbaycan aşıqlarının III və IV qurultaylarının iştirakçısı olub.

Aşıq İmran həm də yaradıcı sənətkar olub. "Qaçaq Kərəm və İsrafil ağa" dastanı, "Qarabağ", "Yusif və Züleyxa" adlı poemaları qələmə alıb. Aşıq-şairin şeirlərində həyatın çətinlikləri zəngin poetik dillə ifadə olunub. Müəllif "Qocalmaz" rədifli şeirində yazır:

*Dünyada olmasa hicranlar, qəmlər,*
*İnsanın ürəyi, gözü qocalmaz.*
*Saçın ağarması zirvə qarıdır,*
*Arzu-diləklərin düzü qocalmaz.*

"Ayrılmaz" şeirində isə şair aşıq sənətinə olan el məhəbbətinə toxunur, sənəti xalqdan ayrı təsəvvür etmir:

*Elin istəyidir mənim sənətim,*
*El sənətdən, sənət eldən ayrılmaz.*
*Könül duyğusudur, könül həmdəmi,*
*Onun səsi heç könüldən ayrılmaz.*

*Onda yatır qoç Koroğlu nərəsi,*
*Kərəmin, Dilqəmin qəmi, qüssəsi.*
*Qurbaninin sözü, Abbasın səsi,*
*Ana laylasıdır, dildən ayrılmaz.*

Sənətkarın xüsusilə ustadnamələri insanları doğruluğa, saflığa, səmimiyyətə səsləyir:

*Ədalıq eyləmə ellər içində,*
*Təmiz arzulu ol, saf niyyətli ol.*
*Şərdən uzaq dolan, fitnədən kənar,*
*Böyükdən alqış al, ziyarətli ol.*

Azərbaycan Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlı Aşıq İmranın bənzərsiz sənət dünyasından danışarkən qeyd edib ki, unudulmaz sənətkar yeddi saz havasının yaradıcısı, "Sənətimin sultanıyam", "Ustadların yolu ilə" adlı şeirlər kitabının müəllifi olub. O, eyni zamanda 12 aşığa ustadlıq edib. Uzun müddət yaşayıb-yaratdığı Tovuz rayonunda Aşıqlar ansamblının rəhbəri olub. Çoxşaxəli yaradıcılığa malik sənətkar aşıq şeirinin müxtəlif janrlarında qələmini sınayıb. Bir-birindən gözəl şeir nümunələri qələmə alıb. Aşıq-şairin divani, təcnis, çığalı təcnis, qoşayarpaq, ustadnamə, gəraylı, gözəlləmə, qıfılbənd, müxəmməsləri ifadə zənginliyi və axıcılığı ilə seçilir.

Klassik aşıq yaradıcılığının mahir bilicisi, ustad sənətkar, Əməkdar mədəniyyət işçisi Aşıq İmran Həsənov 15 dekabr 1999-cu ildə, 71 yaşında vəfat edib.

**Savalan FƏRƏCOV**

# "Mən haqlıyam" deyib kənarda durarsan, kimsə haqqını sənə verməz

## Şeref Malkoç: "Qarabağda məhv edilən abidələrlə bağlı araşdırma aparmaq üçün Azərbaycana gələcəyik"

Türkiyədə Ombudsmanlıq institutu – Kamu Denetçiliği Kurumu (İctimai Auditorlar Qurumu) 2012-ci ildə yaradılıb. Ombudsmanlıq Türkiyə Böyük Millət Məclisinə (TBMM) bağlı bir təşkilatdır və fəaliyyət dairəsi bir sıra ölkələrdəki, o cümlədən Azərbaycandakı Ombudsman (İnsan haqları üzrə müvəkkil) təsisatı ilə müqayisədə daha genişdir. Türkiyə Cümhuriyyəti Ombudsmanı TBMM tərəfindən 4 il müddətinə seçilir. 2016-cı ildən bu vəzifəni daşıyan Şeref Malkoç 2020-ci ildə ikinci müddətə seçilib.

Türkiyə Ombudsmanlıq təşkilatı "Azərbaycan-Ermənistan savaşında Ermənistan tərəfindən pozulan insan haqları" mövzusunda hesabat hazırlayıb. Qurumun heyətinin Vətən müharibəsi zamanı Azərbaycana səfərindən sonra hazırlanan hesabat müxtəlif beynəlxalq təşkilatlara göndərilib. Qardaş ölkənin Ombudsman heyəti yenidən ölkəmizə gəlməyə hazırlaşır. Bu dəfə məqsəd Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki tarixi-mədəni abidələrin məhv edilməsinə dair araşdırma aparmaqdır.

Qurumun rəhbəri Şeref Malkoç bu barədə "Mədəniyyət" qəzetinə müsahibəsində danışdı:

– İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Ombudsmanlıq Qurumları Birliyinin son toplantısında Azərbaycan Respublikasının Ombudsmanı Səbinə Əliyeva bizi yenə Azərbaycana dəvət etdi. Bu dəfə Qarabağ bölgəsindəki tarixi-mədəni abidələrin məhv edilməsinə dair araşdırma aparılması üçün. Biz bu müraciəti rəsmən aldıqdan sonra İƏT-in Ombudsmanlıq Qurumları Birliyinə təqdim edəcəyik. Bizimlə birgə gəlmək istəyən birlik üzvləri ilə tarixi-mədəni abidələrlə bağlı araşdırmalar aparacağıq. Ümid edirəm ki, qısa zamanda bunu da gerçəkləşdirmiş olacağıq. Qarabağ tarixi baxımdan insanların ən qədim yaşayış məskənlərindən olub. İnsanların orada yaratdığı tarixi-mədəni dəyərlər, o cümlədən qədim Türk-İslam tarixi mirası var. Bu tarixi miraslardan hansı zərər gördü, bunu mətbuatdan və digər mənbələrdən öyrənirik, bilirik. Amma bunu yerində öyrənmək üçün araşdırma aparmalıyıq.

Türkiyə hazırda İƏT Ombudsmanlıq Qurumları Birliyinə başqanlığı həyata keçirir. Odur ki, digər ölkələrin də nümayəndələrinin bölgəyə gəlməsi üçün məsləhətləşmələr aparacağıq. Ombudsmanların gəlməsi qədər önəmli olan bir məqam da elm adamlarının gəlməsidir. Onları da dəvət edəcəyik. İlk hesabatımızın təqdirlə qarşılanması bizim işimizə həm stimul verdi, həm də işi intensivləşdirdi. Bu işlərin nəticəsi olaraq insan haqlarının pozulması, insanlığın bir parçası olan tarixi abidələrə, ətraf mühitə vurulan ekoloji zərərlərin təzminatının ödənilməsi tələb olunmalıdır.



– *44 günlük müharibə zamanı Azərbaycanda oldunuz və hesabat hazırladınız. Təqdim etdiyiniz qurumlar bu hesabatı necə qarşıladı?*

– Azərbaycana ziyarətimiz əsasında öncə Bakıda olduq, Azərbaycan Prezidenti İlham Əliyev bizi qəbul etdi, müxtəlif qurumlarla görüşlərimiz oldu. Sonra savaşa yaxın yerlərdə araşdırmalarımızı apardıq. Gəncədə və ətraf ərazilərdə olduq. Dağıdılmış yerlərə, yaralılara, qətl edilən insanların ailələrinə baş çəkdik. İnsanların fəryadına şahid olduq. Topladığımız sənədlər, dəlillər əsasında qısa zamanda hesabat hazırladıq və ingilis dilinə də çevirərək başda BMT, Beynəlxalq Cinayət Məhkəməsi olmaqla dünyadakı bütün insan haqları qurumlarına göndərdik. Həmçinin Türkiyədəki 100-dən çox ölkənin səfirliyinə təqdim etdik. Bu addımımız çox yaxşı reaksiya doğurdu. Bu, bizim həm bir insan hüquqları üzrə, həm də insanlıq vəzifəmizdi ki, onu da icra etdik.

– *Ermənistan rəhbərliyinin törədilən müharibə cinayətlərinə görə Beynəlxalq Cinayət Məhkəməsi qarşısında məsuliyyətə cəlb olunması mümkündürmü?*

– Beynəlxalq hüquqda qaldırılan iddialar əsasında məhkəmələrin başlaması, nəticələnməsi zaman alır. Çünki hüquq digər sahələr kimi deyil. Araşdırmaq, dəlillər toplamaq, o dəlillərlə bərabər iddianamələr hazırlamaq, məhkəmələri bunun əsasında qurmaq lazımdır. Yəni bu uzun prosesdir. Doğrudur, Beynəlxalq Cinayət Məhkəməsi bir az yavaş işləyir, amma işləyir. Burada önəmli olan beynəlxalq hüquq mexanizmi ilə hərəkət etməkdir. Bu məsələdə bizim kimi hüquq təşkilatlarının, digər hökumət və qeyri-hökumət təşkilatlarının, elm adamlarının da fəal olması lazımdır. Tək bir qurumun görəcəyi iş deyil. Bu məsələnin beynəlxalq mediada çox yayılması da vacibdir. Bu mövzuda səbirlə, amma israrlı hərəkət etmək tələb olunur. Media, adətən, bir hadisəyə operativ baxış keçirər və nəticə tələb edər, amma hüquq belə deyil. Hüquqda önəmli olan prinsipial qərar verməkdir.

Amma bu xüsusda medianın da üzərinə önəmli vəzifə düşür. Məsələn, Azərbaycan tərəfi Ermənistandan vaxtilə Qarabağda basdırdığı minaların xəritəsini tələb edir. Bu məsələdə bütün dünyanı ayağa qaldırmaq lazımdır, çünki mina mövzusuna dünya həssas yanaşır. Bu məsələnin yalnız Azərbaycanın dövlət qurumlarının dəstəyilə həll olunması mümkün deyil. Dünyanın hər yerindəki Azərbaycanın diaspor təşkilatları da bu istiqamətdə daha aktiv çalışmalıdır.

Yeni haqlı olduğunuzu, uğradığınız haqsızlığı hayqıraraq dilə gətirmək BMT-nin İnsan haqları bəyannaməsində, Avropa İnsan Haqları Konvensiyasında əks olunub. Bu, demokratik, hüquqi haqdır. Haqq haqlının ən müqəddəs malıdır, verməzlərsə, inadla alacaqsan. Yoxsa "mən haqlıyam, haqqım verilsin" deyib bir kənarda durarsan, kimsə haqqını sənə verməz, müasir dünyanın tələbi budur.

**Mehparə SULTANOVA**
**Ankara**

Nizami sözündən incilər

# Gövhəri səbirlə qazanmaq olar...

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri ideallarıparlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

*Nə qır yaxşı dürrü, nə boş yerə saç,*
*Bədgövhər olanla yaxınlaşma, qaç.*
*Sanma bədgövhərin vardır vəfası,*
*Xəta işləməkdə olmaz xətası.*

**("Xosrov və Şirin")**



*Dünyada qafil olmaq ağıllılıqdan deyil,*
*Qafillikdir həyatda dəliliyə bir dəlil.*

**("Sirlər xəzinəsi")**

*Sənin də səbrində qoy olsun qərar,*
*Gövhəri səbirlə qazanmaq olar.*

**("Leyli və Məcnun")**

*Zülm edib hər bir kəs şur qaldırsa, bil,*
*Göndərər məzara onu hər adil.*

**("Yeddi gözəl")**

*Əqlli adamla dostluq bağlasan,*
*Bilik və mərifət alarsan ondan.*

**("İsgəndərnamə" – "İqbalnamə")**

*Darılma sənə üz verdikdə kədər,*
*Ondan da böyük bir dərddən qıl həzər.*

**("İsgəndərnamə" – "Şərəfnamə")**

# Mingəçevir teatrının "Nizami ili"ndə "Xırda söhbətlər"i

Mingəçevir Dövlət Dram Teatrı "Nizami Gəncəvi İli"nə töhfə olaraq yeni layihə – "Xırda söhbətlər" adlı nağıl tamaşa hazırlayıb.

Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasından "İki rəqib alimin hekayəti", "Firidunla ceyranın hekayəti", "Harun Ər-Rəşidlə dəlləyin hekayəti" əhvalatlarının səhnə redaksiyası əsasında hazırlanan tamaşanın müəllifi teatrın rejissoru Cavid Təvəkküldür.



Meydan teatrı ənənəsində quruluş verilmiş "Xırda söhbətlər" müasir teatrın nağıl tamaşa janrında kiçik səhnə üçün nəzərdə tutulub. Pandemiya şəraitində hələlik tamaşa zalında nümayişin mümkün olmadığı nəzərə alınaraq, tamaşa sosial mediada yayımlamaq üçün hazırlanıb. Tamaşada teatrın gənc aktyorları Paşa Salmanov, Turqut Məsimli, Elvin Əkbərli yer alıblar.

Səhnə əsərinin sosial media və internet kontenti üçün lentə alınması paytaxtdan dəvət olunmuş peşəkar operator Elman Əliyev və səs rejissoru Mehman Məmmədov tərəfindən həyata keçirilib. Tamaşanın montajını bir sıra film və serialların montaj rejissoru Elçin Elxanlı Bakıdakı "Render Edit Studio"da öz öhdəsinə götürüb.

"Xırda söhbətlər" nağıl tamaşası Mingəçevir Dövlət Dram Teatrının bu mövsümdə müasir teatr standartlarına cavab verən ikinci layihəsidir. Birinci layihə ötən ilin sentyabrında Şamaxıda Orta əsrlərə aid Kələxana türbələri fonunda oynanılan "Sara" tamaşası idi. Azərbaycanda ilk dəfə olaraq təbii dekorasiya (tarixi abidə) ilə hazırlanan tamaşanın premyerası internet üzərindən yayımlanmışdı.

Layihənin rəhbəri teatrın direktoru Anar Quliyev, bədii rəhbəri isə Səxavət Məmmədovdur.

# Ağ-qara rənglərin dili ilə danışan rəssam



Tanınmış rəssam, qrafika ustası Ələkbər Ələsgər oğlu Rzaquliyev 1903-cü ildə Bakı şəhərində anadan olmuşdur. O, İçərişəhərdə yaşayan və ticarətlə məşğul olan böyük bir ailədə boya-başa çatmış, uşaqlıqdan Şirvanşahlar sarayını, dar küçələri, Qız qalasını, qala divarlarını sevmiş və bu yerlərə ürəkdən bağlanmışdı.

İlk peşə təhsilini 1918-ci ildə daxil olduğu Real məktəbin nəzdindəki bədii studiyada almışdır. Studiyada rəsm sənətinin incəliklərini öyrənir, yağlı boya texnikasını dərindən mənimsəyir, professional təhsilini isə Bakı Rəssamlıq Məktəbində davam etdirir. Gənc rəssamın oxumaq həvəsi sonsuz idi. Bu səbəbdən 1925-ci ildə Moskvaya gedir və Ali Rəssamlıq Emalatxanasına daxil olur. O zaman həmin müəssisənin rektoru görkəmli qrafik-rəssam V.A.Farovski idi. Onun rəhbərliyi altında məktəbdə təcrübəli pedaqoji kollektiv formalaşmışdı. Gənc azərbaycanlı tələbə rəsm üzrə S.V.Gerasimov və M.S.Rodinovun, rəngkarlıq üzrə isə D.P.Şterenberqin sinfində oxuyur.

Hələ tələbə ikən Ələkbər Rzaquliyev özünü rəngkarlıqda sınayır, keçmişin xarakterik mənzərələrini təsvir edən rəsmlər çəkir. Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılan "Azərbaycan qadını", "Pəhləvanlar" əsərlərində rəssamın milli mövzu və ənənəvi süjetlərə, sadə insan obrazına marağı aşkar görünür. Qadın obrazında, eləcə də pəhləvanların döyüş səhnəsində o, məharətlə Şərq mövzusunun spesifik koloritini təbliğ edir və bununla yanaşı yeni ifadə formaları tapır.

Rəssamın erkən dövrdəki əsərlərində ona sonradan şöhrət gətirəcək cəhətlər – təbiilik, tamaşaçını doğma şəhərin atmosferinə qərq etmək bacarığı, milli ənənələrə hörmət, sadə bakılıların obrazına, onların gündəlik həyatına olan səmimi maraq əksini tapıb.

Uzun illər sürgün həyatı yaşayan (1928, 1937, 1949-cu illərdə həbs edilmişdi) Ə.Rzaquliyev böyük çətinliklərdən keçərək repressiya qurbanları arasında sağ qalanlardan biri olur. Sürgündə rəssam Berta adlı alman qızı evlənir. Bu evlilikdən onun Oqtay və Aydın adlı iki oğlu, Sevda adlı bir qızı olur. Stalinin ölümündən sonra minlərlə sürgün olunmuşlar azad edilir. Ələkbər Rzaquliyev də 1956-cı ildə vətənə qayıdır.

Dönüş ona çox ağır gəlsə də, rəssam sənətə olan ölməz məhəbbətini həyatı boyu qoruyub saxlayır, yaradıcılığına sadiq qalır. Sürgündə keçirilən illər onun yaradıcılığına böyük təsir göstərir. Oğlunun dediyinə görə, Şimal sürgünündə keçirdiyi ağır həyat şəraitindən sonra o, rəng duyğusunu belə itirir. Sonralar rəssamın sənət dostu Rasim Babayev onun karandaşla çəkilən əsərlərini görüb ona qrafika alətlərini hədiyyə edir. Bir müddətdən sonra isə o dərk edir ki, onun sənət yolu məhz qrafikadır.

Fırça ustası estamp texnikasını dərindən mənimsəyir və linoleum üzərində qravürə üstünlük verməyə başlayır. Estampların yaradılması çox zəhmət tələb edən və mürəkkəb prosesdir, lakin bununla belə linoqravürlərin hazırlanması texnikasını mükəmməl öyrənmişdi. Gecə-gündüz çalışaraq, ağlasığmaz iş qabiliyyəti nümayiş etdirir, gözəl qravürlər yaradır. 400-dən çox linoqravür müəllifi olan Ə.Rzaquliyev bu sənətdə özünəməxsus orijinal bir üslub yaratmışdı.

1960-cı illərdə Ə.Rzaquliyev məşhurlaşır. Rəssamın yaradıcılığında yeni mərhələ sosial və mədəni həyatda başlayan tərəqqi dövrünə təsadüf edir. Qravürləri Bakının bədii sərgilərində nümayiş etdirilir. Rəssamın ən sevimli mövzusu olan "Köhnə Bakı" seriyasından olan ağ-qara linoqravürlərində böyük ustalıqla şəhərin köhnə həyatından səhnələri əks etdirib. Qrafik təsvirlərin monoxromluğuna rəğmən bu işlər çalarların zənginliyi, kompozisiyaların dolğunluğu, təkrarolunmaz obrazlar, saysız-hesabsız süjetlər, tipajlar ilə tamaşaçını valeh edir. Ustalıqla düşünülmüş ağ-qara ləkələrin ritmi, nazik xətt, ştrix, punktir nöqtələrin və digər qrafik üslubların sayəsində o, mükəmməl nəticələrə nail olur.

Lakin bütün spesifik qrafika üsulları sadə insanların həyatını əks etdirən daxili məzmuna tabe olunur. Qrafik əsərlərdə kolorit, fərqli tipajlar – ticarətçi, usta, hamamçı, bərbər, arabaçılar – böyük məharətlə canlandırılır.

Ələkbər Rzaquliyev köhnə Bakıya xas olan səhnələri müşahidə etmiş və əbədi olaraq yaddaşında saxlamışdı. Bütün əsərləri vahid kompozisiya və emosional məzmunla birləşdirilir, onlara baxmaqla doymaq olmur. Bunun əsas səbəbi personajların təbiiliyi, onların son dərəcə inandırıcı formada əks olunmasıdır.

Rəssam bir çox stilizasiyadan istifadə edərək, keçən əsrin ənənəvi Azərbaycan portretinə müraciət edir. "Ana portreti", "Küsdü", "Qız" əsərlərində personajların obrazı öz təbiiliyi ilə tamaşaçını heyrətləndirir. Bununla belə, görkəmli mədəniyyət xadimlərinin portretləri emosional təqdimatına görə tam fərqlidir. Bu nümunələrdə rəssam dərin psixoloji obrazlar yaratmağa çalışır. Bu keyfiyyətlər M.Ə.Sabir, C.Məmmədquluzadənin portretində özünü göstərir.



Ələkbər Rzaquliyevin həyatı boyu üzərində çalışdığı "Köhnə Bakı" silsiləsini təhlil edərkən onun yaradıcılığının Əzim Əzimzadənin klassik realist sənətinin gözəl ənənələri ilə sıx bağlılığını başa düşürsən və hiss edirsən. Bu möhtəşəm əsərlər rəssamın yaradıcılığındakı varislik, oxşarlıq elementləri həqiqi milli, obrazların realistliyi və təbiiliyi, doğma şəhərə və sadə bakılılara hədsiz sevgidəndir. "Köhnə Bakı" seriyası rəssamın vizit kartına çevrilmişdir.

Bu baxımdan dəyişik təsvir dili ilə yeni bədii üsullarla zənginləşdirilən "Xəzər balıqçıları" seriyası xüsusi maraq doğurur.

Hələ 1959-cu ildə rəssam sulu boya ilə balıqçılara həsr olunmuş rəsmlər çəkir, tez-tez Lənkəran və Astaranın balıq vətəgələrinə gedir, balıqçılarla birgə işləyir, onların həyatını öyrənirdi. Çoxsaylı linoqravürlərdə o, balıq vətəgələrindəki iş proseslərini təsvir edir. "Soyuducu", "Torların qurudulması" və s. işlərin sırasında balıqovlayan, məhsulun emalı və konservləşdirilməsi ilə məşğul olan fəhlələrin fəaliyyətini əks etdirən çoxfiqurlu kompozisiyalar yer alır.

Əsərlərin əksəriyyətində çarpazlaşan ştrixlər, ağ-qara zolaqların növbələnməsi bənzərsiz xətt oyunu yaradır. Həmin üslubla rəssam adi iş günlərinin xüsusi estetikasını çatdırmağa çalışır və eyni zamanda linoqravürün bütün imkanlarını nümayiş etdirir.

1961-1963-cü illərdə Ə.Rzaquliyev digər rəssamlarla bərabər tez-tez tütün və pambıq tarlalarına gedir, zəhmətkeşlərlə tanış olur, çoxsaylı cizgi və etüdlər çəkir. Sadə insanlarla ünsiyyət rəssamı ruhlandırıraq onu bir sıra seriyaların, o cümlədən "Pambıqçılıq", "Tütünçülük", "Xalçaçılıq" silsiləsindən olan əsərlərin yaradılmasına sövq edir. Tütün yarpaqlarını ipə düzən, çay tarlalarında çalışan, pambıq məhsulunu təhvil verən, üzüm yığan qadınlar rəssamın əsərlərində dərin məhəbbət və səmimiliklə təsvir edilib, onların gündəlik əməyi isə öz ritminə görə milli Azərbaycan rəqsini xatırladır.

Əsl rəssamın əsərləri zaman keçdikcə öz əhəmiyyət və təsir gücünü itirmir. Yaradıcılığı ilə milli mədəniyyətimizin parlaq səhifələrindən birini yazan Ə.Rzaquliyevin əsərləri məhz bu qəbildəndir.

1963-cü ildə rəssamın Bakıda, 1966-cı ildə isə Moskvada fərdi sərgisi təşkil edilir. 1968-ci ildə ona "Əməkdar incəsənət xadimi" adı verilir. Bir müddətdən sonra isə o, "Şərəf nişanı" ordeni ilə təltif edilir. Onun əsərləri Almaniya, Fransa, Belçika, Hollandiya və Yaponiyada, keçmiş SSRİ-nin bir çox respublikalarında sərgilənib. Bir çox əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində, Azərbaycan Dövlət Rəsm Qalereyasında, Ermitaj (Sankt-Peterburq), Puşkin adına Dövlət Muzeyi (Moskva) və başqa nüfuzlu muzeylərdə qorunub saxlanılır və nümayiş etdirilir. Ələkbər Rzaquliyev 31 dekabr 1974-cü ildə Bakıda vəfat etmişdir.

**Rəna ŞAHİRZAYEVA**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı**

## Xatirə təqvimi — 17–21 iyun

### Azərbaycan

**17 iyun 1926** – Xalq rəssamı Elbəy Həsən oğlu Rzaquliyev (1926 – 15.9.2007) anadan olub. Əsərləri bir sıra xarici ölkələrdə sərgilənib. "Qara dağlar", "Telefonçu qız", "Arşın mal alan" (1965), "Bakıda küləklər əsir", "Gün keçdi", "Arxadan vurulan zərbə" və s. filmlərin rəssamı olub.

**17 iyun 2020** – Xalq rəssamı Mayis Əlişir oğlu Ağabəyov (1.5.1941 – 2020) vəfat edib. 20-dən çox filmin ("Babək", "Nizami", "Qətl günü", "Özgə vaxt" və s.) quruluşçu rəssamı olub.

**18 iyun 1917** – Görkəmli bəstəkar, pedaqoq, Xalq artisti Əhməd Cövdət İsmayıl oğlu Hacıyev (1917 – 18.1.1994) anadan olub. Azərbaycanda simfonik musiqinin yaradıcılarından biridir, səkkiz simfoniya, orkestr və xor üçün əsərlər bəstələyib. Qara Qarayevlə birlikdə yazdığı "Vətən" operasına görə SSRİ Dövlət mükafatına layiq görülüb.

**18 iyun 1936** – Azərbaycan SSR Xalq Maarif Komissarlığının qərarı ilə Bakı Fəhlə Uşaq Teatrı Gənc Tamaşaçılar Teatrı adlandırılıb. Teatrın rus bölməsi 1928-ci ilin 5 oktyabrında yaradılmış, Azərbaycan bölməsi 1930-cu ilin 30 yanvarında fəaliyyətə başlamışdı.

**18 iyun 2002** – Naxçıvanda Bəhruz Kəngərli Muzeyinin açılış mərasimi keçirilib. Prezident Heydər Əliyev mərasimdə iştirak edib.

**19 iyun 1900** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Möhsün Sadıq oğlu Sənani (Cəfərov; 1900 – 11.2.1981) Tiflisdə doğulub. Tiflisdəki Azərbaycan teatrında çıxış edib. 1921-ci ildə Bakıya gələrək Azərbaycan Dövlət Akademik Dram Teatrında çalışıb. "Kəndlilər", "Fətəli xan", "O olmasın, bu olsun", "Sehrli xalat", "Dağlarda döyüş" və s. filmlərdə çəkilib.

**19 iyun 1924** – Tanınmış ədəbiyyatşünas, professor, Əməkdar elm xadimi Seyfulla Qüdrət oğlu Əsədullayev (1924-2011) Astara rayonunun Ərçivan kəndində anadan olub.

**19 iyun 1933** – Əməkdar memar Avrora Əbdüləziz qızı Salamova (1933-1986) anadan olub.

**19 iyun 1978** – Əməkdar artist İbrahim Məcnun oğlu Qaradağlı (1907-1978) vəfat edib. Ağdaş teatrında aktyor və rejissor kimi fəaliyyət göstərib.

**20 iyun 1898** – Xalq artisti Əli Mirzə oğlu Qurbanov (1898 – 14.10.1962) Tiflisdə anadan olub. Səhnə fəaliyyətinə burada başlayıb, 1925-ci ildə Bakıya gələrək Akademik Dram Teatrında çalışıb. "Bəxtiyar", "Qızmar günəş altında", "Bir qalanın sirri" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**20 iyun 1912** – Dramaturq, tərcüməçi Cabbar Hüseyn oğlu Məcnunbəyov (1912-1967) İrəvanda doğulub. "İliç buxtası", "İldırım" və s. pyesləri tamaşaya qoyulub.

**20 iyun 1914** – Əməkdar mədəniyyət işçisi, aşıq Əmrah Paşa oğlu Gülməmmədov (1914-1987) Marneuli rayonunun Araplı kəndində doğulub.

**20 iyun 1915** – Xalq artisti Süleyman Ağababa oğlu Ələsgərov (1915 – 10.12.1998) Bakıda doğulub. Gənc Tamaşaçılar Teatrında çalışıb. "Bizim Cəbiş müəllim", "Bəxtiyar", "Babamızın babasının babası" və s. filmlərdə çəkilib.

**20 iyun 1921** – Bəstəkar, Xalq artisti Cahangir Şirgəşt oğlu Cahangirov (1921 - 25.3.1992) Bakının Balaxanı kəndində doğulub. "Arazın o tayında" vokal-simfonik poeması, "Füzuli", "Nəsimi" kantataları, "Azad", "Xanəndənin taleyi" operaları və çoxsaylı mahnıların müəllifidir. "Koroğlu", "Yenilməz batalyon", "Dəli Kür" filmlərinə musiqi yazıb.

**20 iyun 1924** – Biblioqraf, ədəbiyyatşünas, Azərbaycan mətbuat tarixinin tədqiqatçısı, professor Nazim Fərrux oğlu Axundov (1924-1994) Şuşa şəhərində anadan olub.

**21 iyun 1794** – Tarixçi, şair, maarifçi Abbasqulu ağa Bakıxanov (1794-1847) Bakının Əmircan (Xilə) kəndində anadan olub. 1819-1845-ci illərdə çar Rusiyasının Tiflisdəki Qafqaz Baş Hərbi İdarəsində tərcüməçi işləyib, Türkmənçay müqaviləsinin (1828) imzalanmasında iştirak edib. "Gülüstani-İrəm" əsəri ilə Azərbaycan tarixşünaslığının əsasını qoyub. "Qüdsi" təxəllüsü ilə şeirlər yazıb.

**21 iyun 1933** – Xalq artisti, xanəndə Tələt Məmmədağa oğlu Qasımov (1933 – 28.7.2013) Bakıda doğulub. Azərbaycan Dövlət Filarmoniyası və Dövlət Konsert Birliyinin solisti olub.

**21 iyun 1953** – Əməkdar incəsənət xadimi, sənətşünas, professor Leyla Camal qızı Axundzadə (1953 – 10.2.2010) anadan olub. Mədəniyyət və İncəsənət Universitetində, Dövlət Rəssamlıq Akademiyasında kafedra müdiri olub, Mədəniyyət və Turizm Nazirliyi Təsviri və dekorativ sənət sektorunun müdiri işləyib.

### Dünya

**17 iyun 1818** – Fransız bəstəkarı, dirijor və pedaqoq Şarl Quno (Charles François Gounod; 1818-1893) anadan olub. "Faust", "Romeo və Cülyetta" operalarının müəllifidir.

**17 iyun 1882** – Rus bəstəkarı, dirijor, pianoçu İqor Stravinski (1882-1971) anadan olub. "Müqəddəs bahar", "Səməndər quşu" baletlərinin, "Bülbül" operasının müəllifidir.

**18 iyun 1936** – Rus-sovet yazıçısı Maksim Qorki (Aleksey Maksimoviç Peşkov; 28.3.1868 – 1936) vəfat edib. Əsərləri: "Ana", "Foma Qordeyev", "Artamonovların işi", "Klim Samginin həyatı" (romanlar); "Meşşanlar", "Həyatın dibində", "Yeqor Bulıçev və başqaları", "Vassa Jeleznova" (pyeslər) və s.

**19 iyun 1623** – Fransız filosofu, riyaziyyatçı Blez Paskal (Blaise Pascal; 1623-1662) anadan olub. "Din və digər şeylər haqqında düşüncələr", "Əyalət adamına məktublar" və s. əsərlərin müəllifidir.

**19 iyun 1920** – Fransız kinorejissoru İv Robber (Yves Robert; 1920-2002) anadan olub. Filmləri: "Qara çəkməli ucaboy sarışın", "Ucaboy sarışının qayıtması" və s.

**19 iyun 1924** – Belarus yazıçısı Vasil Bıkov (1924-2003) anadan olub. Əsərləri: "Alp balladası", "Ölülər ağrı hiss etmir", "Sotnikov", "Sübhədək yaşamalı" və s. Əsərləri əsasında filmlər çəkilib.

**20 iyun 1819** – Fransız bəstəkarı Jak Offenbax (Jacques Offenbach; 1819-1880) anadan olub. "Gözəl Yelena", "Paris həyatı", "Quldurlar" və s. operettaların müəllifidir.

**20 iyun 1932** – Rus şairi Robert Rojdestvenski (1932-1994) anadan olub. Əsərləri: "Rekviyem", "Otuzuncu əsrə məktub", "210 addım" poemaları və s.

**21 iyun 1840** – Gürcü şairi, yazıçı, ictimai xadim Akaki Rostomoviç Sereteli (1840 - 8.2.1915) anadan olub.

**21 iyun 1905** – Fransız yazıçı-dramaturqu, ekzistensialist filosof Jan-Pol Sartr (Jean-Paul Sartre; 1905-1980) anadan olub. 1964-cü ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülüb, lakin mükafatdan imtina edib. Əsərləri: "Ürəkbulanma", "Azadlıq yolları", "Milçəklər", "Qapalı qapılar arxasında", "Dəfn olunmamış ölülər" və s.

**21 iyun 1910** – Rus şairi Aleksandr Tvardovski (1910-1971) anadan olub. "Muraviya ölkəsi", "Vasili Tyorkin" və s. poemaların müəllifidir.

**21 iyun 1935** – Fransız yazıçısı Fransuaza Saqan (Françoise Sagan; 1935-2004) anadan olub. "Salam, kədər", "Soyuq suda bir az günəş", "İtmiş sima" və s. romanların müəllifidir.

**Hazırladı: Vüqar ORXAN**

№44-45 (1822)
18 iyun 2021
www.medeniyyet.az



# "Gəl, gör məni"

## TÜRKSOY-da Yunus Əmrə irsi ilə bağlı sərgi açılıb

İyunun 14-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Ankaradakı qərargahında böyük türk şairi və mütəfəkkiri, türk ədəbi dilinin banilərindən biri Yunus Əmrənin vəfatının 700 illiyinə həsr olunmuş sərginin açılışı keçirildi.

"Gəl, gör məni" adlı sərgini TÜRKSOY Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, Milli Təhsil Nazirliyi, Yunus Əmrə İnstitutu, Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumu və Ankara Təkmilləşdirmə İnstitutu ilə birlikdə hazırlayıb.

Açılış mərasiminə Türkiyə mədəniyyət və turizm nazirinin müavini Sərdar Çam, Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumunun rəhbəri Məhəmməd Həkimoğlu, Türk Dil Qurumunun rəhbəri Gürer Gülsevin, Milli Təhsil Nazirliyinin rəsmisi Cem Gençoğlu, Xarici İşlər Nazirliyinin Mədəni diplomatiya şöbəsinin baş direktorunun müavini Emir Selim Yüksel, Avrasiya Yazıçılar Birliyinin sədri Yaqub Öməroğlu və digər qonaqlar qatılmışdı.

Mərasimdə çıxışına Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "İtik itirildiyi yerdə tapılar" ifadəsiylə başlayan TÜRKSOY-un Baş katibi Düsen Kaseinov "Hikmət axtarmağa dillərimizdən başlamalıyıq və dünya dili olan türk dilinə sahib çıxmalıyıq" dedi. 2021-ci ilin Türkiyədə "Yunus Əmrə və Türk Dili İli" elan edilməsi ilə bərabər, Yunus Əmrənin vəfatının 700 illiyinin həm də UNESCO-nun yubileylər siyahısına salındığını diqqətə çatdıran Düsen Kaseinov bu vəsilə ilə düzənlənən müxtəlif tədbirlərin eyni zamanda mənəvi xəzinəmizin təbliğini genişləndirmək üçün bir fürsət olduğunu vurğuladı.

Baş katib mütəfəkkir şairin həyat və şəxsiyyətindən də bəhs edərək, Yunus Əmrə, Mövlanə (Cəlaləddin Rumi), Hacı Bektaşi Vəli, Pir Sultan və digər Anadolu mütəfəkkirlərinin Əhməd Yəsəvidən aldıqları ilahi eşq atəşini geniş Türk dünyası coğrafiyasına yaydıqlarını bildirdi: "Bilik, ürfan və müdriklik insanı bizim Yunus, qədim Anadolu torpaqları başda olmaqla, Türk dünyasına böyük bir miras və silinməz izlər buraxıb".

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Sərdar Çam çıxışında 2021-ci ilin həmçinin Hacı Bektaşi Vəli və Ahi Evran (Pir Ahi Evran Vəli) kimi mütəfəkkirlərin də xatirə ili olduğunu qeyd edərək "Bütün bunları nəzərdən keçirərkən bu böyük insanların bizlərə bəxş etdikləri zəngin bir mənəvi sərvət içində olduğumuzu görə bilərik" dedi.

"Yunus Əmrə və Türk Dili İli"ndə Türkiyənin 81 vilayətində və dünyanın 81 ölkəsində ümumilikdə 1800-dən çox tədbirin düzənlənəcəyini deyən nazir müavini "Yunus Əmrə" oratoriyasının (məşhur bəstəkar Əhməd Adnan Sayqunun müəllifi olduğu ilk tükcə oratoriya – red.) Belçikada təşkil ediləcək Sufi həftəsi çərçivəsində təqdim ediləcəyini də diqqətə çatdırdı. Bildirdi ki, bu il vəsiləsi ilə alimlərimizin və diplomatlarımızın da bizi anlatmaq, ifadə etmək üçün imkanları var.



Çıxışlardan sonra sərginin rəmzi açılış lenti kəsildi. Tədbir iştirakçıları Yunus Əmrənin həyatını, yaradıcılığını, yaşadığı dövrü əks etdirən sərgi ilə tanış oldular, musiqiləri dinlədilər, ebru sənətçilərinin əl işini canlı izlədilər.

**Mehparə SULTANOVA**
**Ankara**

# "Düşüncələr" və "Keçid"

## Nizamiyə həsr edilmiş xalça eskizi müsabiqəsinin qalibləri məlum olub

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr edilən beynəlxalq xalça eskizi müsabiqəsinin qalibləri müəyyənləşib.



Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin təşkilatçılığı ilə "Nizami Gəncəvi İli" çərçivəsində keçirilən müsabiqədə yaşı 20-dən yuxarı yaradıcı şəxslər iştirak edib.

Beynəlxalq münsiflər heyəti tərəfindən 43 iştirakçı arasından iki nəfər – "Düşüncələr" adlı eskizin müəllifi, azərbaycanlı rəssam Eldar İbadullayev və "İntikalun" (ərəb dilindən tərcümədə "Keçid") adlı eskizin müəllifi, Rusiyadan olan tekstil dizayneri Olqa Laşenko qalib seçilib.

Qeyd edək ki, müsabiqədə qalib olan müəlliflərin eskizləri əsasında Milli Xalça Muzeyinin Ənənəvi texnologiya şöbəsinin əməkdaşları tərəfindən xalça toxunacaq, həmçinin qaliblərə pul mükafatı veriləcək. Müsabiqənin qaliblərindən biri xarici vətəndaş olduğundan onun xalça kəsimi mərasimində iştirakı üçün yol və mehmanxana xərcləri təşkilatçılar tərəfindən ödəniləcək.

# Azərbaycan və gürcü ədəbiyyatının qarşılıqlı tərcüməsi, nəşri və yayılması

Azərbaycan Dövlət Tərcümə Mərkəzi ilə Gürcüstan Milli Yazıçılar İttifaqı arasında əməkdaşlıq memorandumu imzalanıb.

Dövlət Tərcümə Mərkəzindən bildirilib ki, əməkdaşlıq sənədində Azərbaycan və Gürcüstan ədəbiyyatlarının qarşılıqlı mübadilə çərçivəsində tərcüməsi, nəşri, kitablara dair təqdimatların, dəyirmi masaların, onlayn konfransların keçirilməsi, nəşrlərin hər iki ölkədə geniş oxucu auditoriyasına çatdırılması, kitabxanalara təqdim edilməsi kimi məsələlər əksini tapıb.

Memorandum Azərbaycan Dövlət Tərcümə Mərkəzinin İdarə Heyətinin sədri Afaq Məsud və Gürcüstan Milli Yazıçılar İttifaqının sədri Makvala Qonaşvili tərəfindən imzalanıb.

# "Müasir Azərbaycan ədəbiyyatı" Monteneqro dilində

"Nizami Gəncəvi İli" münasibətilə Monteneqro dilində "Müasir Azərbaycan ədəbiyyatı" kitabı çap olunub. Nəşr Azərbaycan-Monteneqro İqtisadi və Mədəni Əlaqələr Mərkəzinin direktoru Seyran Mirzəzadə, mərkəzin üzvü, publisist Bojidar Proroçiç, tənqidçi Diyana Tiganyinin həmmüəllifliyi ilə işıq üzü görüb.

Kitabda Azərbaycan ədəbiyyatının müxtəlif nəsillərinin nümayəndələri – Xalq yazıçıları Anar, Çingiz Abdullayev, Xalq şairi Vaqif Səmədoğlu, eləcə də Nurəngiz Gün, Əyyub Qiyas, Məqsəd Nur, İlqar Fəhmi, Müşfiq Xan, Elxan Zal Qaraxanlı, Rəşad Məcid, Qulu Ağsəs, Səlim Babullaoğlu və başqalarının əsərləri Monteneqro dilində dərc edilib.

Kitab Azərbaycan-Monteneqro İqtisadi və Mədəni Əlaqələr Mərkəzi, Çetinye Şəhər Bələdiyyəsi, Monteneqro Mədəniyyət Forumunun və Azərbaycan Yazıçılar Birliyinin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin təşkilatçılığı və dəstəyi ilə ərsəyə gəlib.

# "Şərqin böyük şairləri: oxşar talelər"

Özbəkistanın paytaxtı Daşkənddə "Şərqin böyük şairləri Nizami Gəncəvi və Əlişir Nəvainin həyat və yaradıcılığı: oxşar talelər" adlı beynəlxalq onlayn elmi seminar keçirilib. Tədbir Azərbaycan şairi Nizami Gəncəvinin 880 və özbək şairi Əlişir Nəvainin 580 illik yubileylərinə həsr edilib.

Seminarın aparıcısı – Kəmaləddin Behzad adına Daşkənd Rəssamlıq və Dizayn İnstitutunun dosenti Oybek Qasımov, eləcə də AMEA A.Bakıxanov adına Tarix İnstitutunun icraçı direktoru, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin əməkdaşı Yusif Məmmədov hər iki şairin həyat və yaradıcılığı barədə fikirlərini bölüşüblər.

Azərbaycan alimləri – professorlar Ramiz Əskər, Tərlan Quliyev, Mais Əmrahov, filologiya üzrə elmlər doktoru Almaz Ülvi Binnətova, filologiya üzrə fəlsəfə doktoru, dosent Təhminə Bədəlova, tarix üzrə fəlsəfə doktoru, dosent Nigar Axundova, həmçinin özbək alimləri Nizami Gəncəvi və Əlişir Nəvainin ölməz "Xəmsə"ləri haqqında söhbət açıblar.

# İllər sonra alma-materdə görüş

## Dünya şöhrətli xoreoqraf BXA-ya təcrübə və təkliflərini gətirib

Xəbər verdiyimiz kimi, Rusiyanın Əməkdar incəsənət xadimi, Mariinski Teatrı Primorsk səhnəsinin (Vladivostok şəhəri) baş baletmeysteri Eldar Əliyev Bakıda səfərdədir. Məşhur xoreoqraf soydaşımız Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında ustad dərsləri keçmək üçün dəvət olunub. İyunun 12-də Eldar Əliyevlə Bakı Xoreoqrafiya Akademiyasında (BXA) görüş keçirildi.



BXA-nın tədris işləri üzrə prorektoru, rektor vəzifəsini müvəqqəti icra edən Əziz Qarayusifli sənətkarı pedaqoji heyətlə tanış etdi. Akademiyanın fəaliyyəti haqqında qonağa məlumat verən prorektor təhsil müəssisəsinin elmi və akademik kadr potensialı, son dövrdə həyata keçirilən islahatlar və cəlb edilən peşəkar heyət barədə söz açdı. O, təhsil ocağının gələcək planları və tədris prosesi barədə fikirlərini bölüşərək Eldar Əliyevin BXA ilə bağlı təkliflərini də diqqətə çatdırdı. Vurğuladı ki, Rusiya ali təhsil müəssisələri və BXA arasında tələbə-müəllim mübadilə proqramları, birgə konfranslar və layihələr həyata keçirmək olar.

Görüşdə BXA-nın rəhbər və pedaqoq heyəti Azərbaycanda xoreoqrafiya təhsili sahəsində yeniliklər və problemlərdən də danışdılar. Tələbələrin mübadiləsi, təhsilin keyfiyyəti mövzusunda müzakirələr aparıldı. Tanınmış xoreoqrafın təcrübəsinə və təkliflərinə hər zaman ehtiyac duyulduğu qeyd olundu. Bu kontekstdə pedaqoji seminarların zəruriliyi vurğulandı.

Eldar Əliyev səmimi görüşə görə akademiyanın rəhbərliyinə təşəkkür edərək BXA-nın Rusiyanın ali təhsil müəssisələri ilə əməkdaşlıq münasibətlərinin daha da inkişafı üçün dəstək göstərəcəyini dedi. O, dünyanın balet məktəbləri ilə əlaqələrin qurulması barədə də təkliflərini irəli sürdü. Diqqətə çatdırdı ki, əməkdaşlıq zamanı pedaqoqların seçiminə xüsusi yanaşılmalı, daha çox pedaqoqlar və tələbələrin iştirakı ilə birgə seminar və ustad dərslərinə üstünlük verilməlidir.

Görüşdə Azərbaycanda xoreoqrafiya təhsili sahəsində qanunvericilik, idarəetmə, balet sənətinin inkişafı ilə bağlı proqramların günün tələbinə cavab verməsi məsələləri də müzakirə edildi. Eldar Əliyev Moskva Dövlət Xoreoqrafiya Akademiyasının filiallarının fəaliyyəti ilə bağlı məlumat verdi. Yaxın gələcəkdə həyata keçirilə biləcək birgə tədbirlər haqqında da ətraflı fikir mübadiləsi aparıldı. Əməkdaşlıq müqaviləsinin imzalanması barədə razılıq əldə edildi. Eldar Əliyev BXA-nın rəhbərliyinə xatirə hədiyyələri təqdim etdi.

Görüşdən sonra BXA-nın şagird və tələbələri qonağın şərəfinə konsert proqramı ilə çıxış etdilər. Klassik şöbənin tələbələri modern rəqs (pedaqoq və quruluş Yelena Çernousova), Milli rəqs kafedrasının tələbələri C.Cahangirovun "Zəriflik" rəqsi (pedaqoq, Əməkdar artist Səbinə Qasımova), tələbələrdən Aza Nurullayeva "Qu gölü" (P.Çaykovski) baletindən variasiya (pedaqoq, Xalq artisti Kamilla Hüseynova), Roza Zeynalova "Tənhalıq" (V. Mustafazadə) kompozisiyasını (pedaqoq və quruluş Y.Çernousova), Klassik rəqs kafedrası şagird və tələbələri isə L.Bethovenin "Müqavimət" (pedaqoq və quruluş Əməkdar müəllim Pullumb Aqalıyay) əsərini təqdim etdilər.

Sonda Əziz Qarayusifli qonağa təşəkkürnamə təqdim etdi.

Qeyd edək ki, Eldar Əliyev Bakıda anadan olub. Bakı Xoreoqrafiya Məktəbini (indiki BXA), daha sonra Rusiya Balet Akademiyasını bitirib. 1979-1992-ci illərdə Leninqrad (Sankt-Peterburq) şəhərindəki Kirov adına (indiki Mariinski) Teatrın balet truppasının solisti olub. Bir çox klassik balet tamaşalarında əsas partiyaları uğurla ifa edib, dünyanın 40-dan çox ölkəsinə qastrola gedib. Bir müddət ABŞ-da çalışıb. 2016-cı ildən Mariinski Teatrı Primorsk səhnəsinin baş baletmeysteridir. Bu il Rusiyanın "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb.

**Lalə AZƏRİ**

Lənkəran Dövlət Dram Teatrının rəhbərliyi və kollektivi iş yoldaşları, teatrın aparıcı səhnə ustası, Əməkdar artist Sücəddin Mirzəyevə qardaşı

**Vasifin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

# Pandemiyadan sonra turizmin bərpası

İyunun 23-24-də Özbəkistanın Fərqanə vilayətinin Kokand şəhərində Türk Şurası turizm nazirlərinin VI iclası keçiriləcək.

İclasda Türk Şurasının Baş katibi Bağdad Amreyev, Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy, Qazaxıstanın mədəniyyət və idman naziri Aktoti Raimkulova, Qırğızıstan Baş nazirinin müavini, iqtisadiyyat və maliyyə naziri Akılbek Japarov və Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin rəhbərliyi ilə nümayəndə heyətləri iştirak edəcək.

Tədbirdə pandemiyadan sonra bu ölkələrdə turizm sahəsinin bərpa olunması, "Ziyarət turizmi" layihəsinin fəaliyyətə başlaması, üzv ölkələrin böyük şəhərləri arasında beynəlxalq aviasiya reyslərinin bərpası və bu istiqamətdə digər məsələlər müzakirə ediləcək.

Qonaqlar Fərqanə vilayətinin turizm sahələri, ziyarət turizmi imkanları, ekoturizm, vilayətin qastronomik potensialı ilə də tanış olacaqlar.

# "Heç bir millətin əfqan xalqı kimi iztirab çəkdiyini görmədim"

## Rza Diqqəti qırx il əvvəl çəkdiyi fotoşəkilləri təqdim edib

İçərişəhərdəki Maqsud İbrahimbəyov yaradıcılıq Mərkəzində Fransada yaşayan Azərbaycan əsilli fotoqraf Rza Diqqətinin Əfqanıstan silsiləsindən olan fotoşəkillərinin təqdimatı keçirilib. Təqdimat iyunun 14-də Latviyanın Azərbaycandakı Səfirliyinin təşəbbüsü ilə reallaşan "Peace be upon you – Salam aleykum" layihəsi çərçivəsində reallaşıb.




Yaradıcılıq mərkəzinin direktoru Anna İbrahimbəyova iştirakçıları salamlayaraq tədbirin əhəmiyyətini yüksək qiymətləndirib.

Tədbirdə Latviyanın ölkəmizdəki səfiri Daynis Qarançs, Latviyanın keçmiş müdafiə naziri Raimons Bergmanis və başqaları çıxış edərək ötən əsrin 70-80-ci illərində Əfqanıstanda kənar qüvvələrin müdaxiləsi ilə baş verən vətəndaş müharibəsindən söhbət açaraq bu hadisələrin dünyaya çatdırılmasında Rza Diqqətinin böyük xidmətlərini qeyd ediblər.

Rza Diqqəti peşəkar karyerasının 40 il əvvəl başladığını və ötən müddət ərzində dünyada gedən hərbi toqquşmalarda gördüklərini lentə köçürdüyünü bildirib. Fotoqraf Əfqanıstanda olarkən çəkdikləri fotoları nümayiş etdirib və onlar haqqında məlumat verib.

Bildirib ki, o, Əfqanıstanda hərbi əməliyyatlar zamanı orada insanların hansı şəraitdə yaşadığını fotokameranın yaddaşına köçürüb. Ən çox qadın və uşaqların düşdükləri durumu dünyaya çatdırmağa çalışıb: "Mən heç bir millətin əfqan xalqı kimi iztirab çəkdiyini görmədim. Qışın soyuğunda ayaqyalın uşağı kadra almaq məni çox kədərləndirdi".

Tədbirin ikinci hissəsində tanınmış tarixçi, tədqiqatçı Fuad Axundov Qarabağın məşhur şəxsiyyətləri haqqında danışıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 1120
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.